www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27-28 avqust 2016-cı il Şənbə № 189 (6510) Qiymәti 60 qәpik

**Xəbər**

## Şəmkirdə qadın qadını bıçaqladı - ərinə mesaj yazdığına görə

yazısı səh.14-də

**Gündəm**

### Cahangir Hacıyevin işçisi üzünə durdu: "Allahınız olsun, niyə yalan danışırsınız?!"




"Beynəlxalq Bank işi" məhkəməsində sensasion faktlar ortaya çıxdı; bank rəhbərinin sürücüsünün adına 16 milyon kredit ayrılıbmış

yazısı səh.3-də

### "Nardaran işi"ndə həbs edilənlər ekspertizadan keçiriləcək

yazısı səh.2-də

*İkram İsrafil:*

### "Son həbslər bilavasitə referendumla bağlı deyil"

yazısı səh.4-də

### Bakıdakı banklarda dollar və avro ajiotajı

yazısı səh.2-də

### AVCİYA iqtidarla müxalifət arasında dialoq aparılmasını tövsiyə edəcək

yazısı səh.2-də

### "Alfa Sığorta"nın lisenziyası ləğv edildi

yazısı səh.10-da

### Lənkəranskinin qətlini sifariş etməkdə suçlanan "Şakro"nun yaxın adamı həbs olundu

yazısı səh.11-də

### Manatla bağlı bədbin proqnozlar artır...

yazısı səh.10-da

### 40 minlik rus balerinası azərbaycanlı milyonerin ailəsini necə dağıdıb - şok faktlar

yazısı səh.13-də

### Azərbaycanda 24 min dustağın yeməyini kimlər yeyir - araşdırma

yazısı səh.12-də

## Amerikanın prezident Əliyevə işi düşüb...

# PENTAQONUN YENİ BAKI PLANI - NÜVƏ BAŞLIQLARI TƏKLİFİ...

İncirlikdəki nüvə başlıqlarının bir qismi Azərbaycana təklif oluna bilər; Amerika generalları İran və Rusiya ittifaqına qarşı yeni plan hazırlayır; ABŞ-ın Müdafiə Nazirliyinin hesabatında yazılır ki...



yazısı səh.9-da

## Ermənistanın İranla iqtisadi münasibətləri və Samvel Aleksanyanın araq yüklü eşşəkləri...

Erməni KİV-ləri Serj Sərkisyanın xarici siyasətini və ona yaxın olan oliqarxları topa tutur

yazısı səh.8-də



*Zahid Oruc:*

### "Referendumdan sonra hökumətin fəaliyyətində ASAN xidmət modelinin tətbiqi mümkündür"

yazısı səh.6-da



### Mahal İsmayıloğlunun vəfatından bir il ötür

yazısı səh.4-də



### Ənvər Seyidovun hakimliyindən qan qoxuyan "güllər"

yazısı səh.7-də



## Prezident Salyanda yol tikintisinə 3,8 milyon manat ayırdı

**Azərbaycan prezidenti İlham Əliyev Salyan rayonunun Çuxanlı-Gəncəli-Piratman-Parça Xələc-Seyidan avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, 5 min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Çuxanlı-Gəncəli-Piratman-Parça Xələc-Seyidan avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədi ilə dövlət büdcəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunda nəzərdə tutulmuş vəsaitdən 3,8 milyon manat ayrılıb.

Maliyyə Nazirliyi və "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə müvafiq məbləğdə maliyyələşməni və tikinti işlərini təmin etmək tapşırılıb.



## AVCİYA referenduma dair ilkin hesabatını təqdim etdi

Qurum iqtidarla müxalifət arasında dialoq aparılmasını tövsiyə edəcək

**Avqustun 26-da Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) 26 sentyabr 2016-cı tarixində keçiriləcək referendumla bağlı uzunmüddətli müşahidə ilə əlaqədar mətbuat konfransı oldu.**

Mətbuat konfransını giriş sözü ilə açan AVCİYA-nın vitse-prezidenti Elçin Salmanov qeyd etdi ki, AVCİYA artıq referendumla bağlı uzunmüddətli müşahidəyə start verib, Avropanın qabaqcıl ölkələrinin qanunvericiliyinin müqayisəli təhlilini aparıb və bu təhlili kitabça kimi nəşr edib. Kitabçada referendumda konstitusiyaya nəzərdə tutulan əlavə və dəyişiklərin Fransa, Niderland, Norveçin qanunvericiliyi ilə müqayisəsi verilib.

**AVCİYA-nın seçki qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı** bildirdi ki, assosiasiya 26 iyun 2016-cı ildən MSK-ya müraciətləri, imza toplama kampaniyası və qeydə alınma proseduru, seçici siyahıları, referendum prosesi ilə bağlı qanun pozuntuları, referendumla bağlı qanunverici baza, referendum ərəfəsində ölkədəki siyasi mühit, MSK, DSK və MnSK-ların fəaliyyəti, təşviqat kampaniyası və referendum gününün monitorinqinin təşkili kimi geniş miqyaslı fəaliyyətin icrasına başlayıb. Artıq hazırlanmış ilkin hesabat haqqında məlumat verən M.Zülfüqarlı qeyd etdi ki, ilkin hesabatda Azərbaycan Respublikasında keçirilmiş referendumlar haqqında məlumat, referendumqabağı siyasi mühitin təhlili, söz və mətbuat azadlığının vəziyyəti, referendum administrasiyasının fəaliyyəti, AVCİYA haqqında məlumat və 2 radio (*İctimai radio, "Azadlıq" radiosu*), 9 qəzet (*3 iqtidar - "Azərbaycan", "Xalq qəzeti", "Bakinskiy raboçiy" qəzetləri; 3 neytral - "525-ci qəzet", "Ədalət", "Şərq" qəzetləri, 3 müxalifət - "Azadlıq", "Yeni Müsavat", "Xalq Cəbhəsi" qəzetləri*) və 2 informasiya agentliyinin (*APA, "Turan"*) monitorinqi öz əksini tapıb. Məhərrəm Zülfüqarlı AVCİYA-nın referendum günü 62 dairədə, 3000 məntəqədə müşahidə aparacağını bildirdi və söylədi ki, hazırda Azərbaycanın müxtəlif bölgələrindən olan 300 müşahidəçi üçün treninqlər keçirilir: "Azərbaycan regionda ən stabil ölkədir. Bu da demokratik, şəffaf referendum keçirilməsinə imkan verir. Siyasi qüvvələr arasında elə bir ziddiyyət müşahidə olunmur. Tövsiyələrimizdən biri iqtidarla müxalifət arasında dialoqun aparılması olacaq".

Türkiyə və Rusiya prezidentləri Çində keçiriləcək G-20 zirvəsində ikitərəfli görüş keçirmək barədə də razılığa gəliblər.

## Dolların avqustun 29-na olan məzənnəsi açıqlandı

**Azərbaycan Mərkəzi Bankı (AMB) avqustun 29-na olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi avqustun 29-na 1,6280 səviyyəsində müəyyən olunub.**

Dünən də dollar 1,6280 manata bərabər olub.

# "Azərbaycana qaçaq yolla əsasən narkotik, tütün və içki gətirilir"

**Aydın Əliyev:** "Vətəndaşlar kommersiya və istehsalat məqsədləri üçün ölkəyə gətirilən məhsullara edilən güzəştləri düzgün başa düşmür"

**Azərbaycana qaçaq yolla əsasən narkotik tərkibli maddələr, tütün məmulatları, spirtli içkilər və mobil telefonların keçirilməsi cəhdləri olur.**



APA-nın qərb bürosunun verdiyi məlumata görə, bunu **Gömrük Komitəsinin sədri, gömrük xidməti general leytenantı Aydın Əliyev** deyib. O qeyd edib ki, Azərbaycanın İranla sərhəd keçid məntəqəsində ən böyük təhlükə narkotik vasitələrin ölkəyə keçirilməsi ilə bağlıdır: "Bu ilin 8 ayı ərzində gömrük orqanlarının əməkdaşları tərəfindən artıq 1 ton 100 kiloqramdan artıq heroin aşkar olunaraq götürülüb. Hər gün az miqdarda da olsa ayrı-ayrı vətəndaşlar tərəfindən narkotik və psixatrop tərkibli maddələrin keçirilməsinə cəhd edilir".

**Komitə sədri əlavə edib ki, bütün sərhəd keçid məntəqələrində tütün məhsullarının ölkəyə qaçaq yolla gətirilməsinə cəhd olunur. Onun sözlərinə görə, spirtli içkilərin ölkəyə qanunsuz yolla daxil olması halları daha çox Gürcüstan və Rusiya tərəfində müşahidə olunur:** "Eyni zamanda, Gürcüstanla sərhəd keçid məntəqəsində vətəndaşların qanunsuz olaraq ölkəyə mobil telefonlar keçirmək cəhdi böyük problemlər yaradır".

**A.Əliyev əlavə edib ki, vətəndaşlar kommersiya və istehsalat məqsədləri üçün ölkəyə gətirilən məhsullara edilən güzəştləri düzgün başa düşmür və kommersiya məqsədləri üçün gətirilən mallara güzəştlər edilməsini istəyirlər:** "Nazirlər Kabinetinin 305 saylı qərara etdiyi son dəyişiklər bu məsələyə tam aydınlıq gətirib".

## Uorlik Ermənistanın "DQR"-in 25 illiyi ilə bağlı tədbir keçirməsinə münasibət bildirdi

**"Bizim mövqeyimiz aydındır. Dağlıq Qarabağ müstəqil respublika kimi ABŞ və Ermənistan da daxil olmaqla, heç bir ölkə tərəfindən tanınmır".**

Bu sözləri APA-ya açıqlamasındaATƏT-in Minsk qrupunun amerikalı həmsədri Ceyms Uorlik Ermənistanda "Dağlıq Qarabağ Respublikasının müstəqilliyinin 25 ili" adı altında tədbirin keçirilməsinə münasibət bildirərkən deyib.

Diplomat bildirib ki, diqqəti münaqişənin sülh yolu ilə həllinə apara biləcək addımlara, xüsusilə Azərbaycan və Ermənistan prezidentləri arasında davam edən dialoqa cəmləmək son dərəcə vacibdir: "ATƏT-in Minsk qrupunun digər həmsədr ölkələri ilə birlikdə biz münaqişənin sülh yolu ilə həllinə kömək etmək üçün tərəflərlə fəal işləməyə davam edəcəyik".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

## Nardaranda həbs edilənlər ekspertizadan keçiriləcək

**"Müsəlman Birliyi" Hərəkatının sədri Taleh Bağırzadə, hərəkatın 16 üzvü və Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) sədrinin müavini Fuad Qəhrəmanlının cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

Musavat.com-un məlumatına görə, məhkəmədə təqsirləndirilən Abbas Hüseynov hakimdən şikayət edib.

A.Hüseynov hakimə şahidləri istiqamətləndirən suallar verdiyini deyərək ondan məhkəmə rəhbərliyinə şikayət edəcəyini deyib. Hakim Əlövsət Abbasov onun şikayətinin məhkəmə rəhbərliyinə çatdırılacağını deyib.

Prosesin davamında vəkillər hüquqlarını müdafiə etdikləri şəxslərə işgəncələr verildiyini deyərək, bunun üçün tibbi ekspertizanın keçirilməsini istəyiblər.

Təqsirləndirilən Şamil Abduləliyevin vəkili isə vəsatət qaldıraraq əməliyyat zamanı müvəkkilinin bədənində olan güllələrin çıxarılmasını istəyib: "Əməliyyat keçiriləndən bu vaxta qədər onun bədənində güllələr qalıb. Müvəkkilim müayinə edilsin və bədənindəki güllələr çıxarılsın".

Dövlət ittihamçısı vəsatətlərin təmin edilməməsini istəyib. Ancaq məhkəmə heyəti vəsatətlərin təmin edildiyini açıqlayıb.

Prosesin davamında DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməliyyat müvəkkili Elçin Tağıyev sualları cavablandırıb.

İlk sual Nardaranda keçirilən əməliyyat zamanı polislərdən birinin qoruyucu gödəkçə geyindiyi halda necə yaralanması haqda olub.

E.Tağıyev özünün qoruyucu gödəkçə geyindiyini digərləri barədə dəqiq məlumatının olmadığını deyib. O, həmçinin qumbaradan istifadə etmədiyini də söyləyib.

E.Tağıyev digər sualları da cavablandırıb.

Proses avqustun 31-də davam edəcək.

## İstanbulda üçüncü "Asma körpü"nün açılış mərasimi keçirildi

**Türkiyənin İstanbul şəhərində Avropa və Asiya qitəsini üçüncü dəfə bir-birinə birləşdirən "Asma körpü"nün açılışı mərasimi keçirilir.**

"Report"un Türkiyə bürosu xəbər verir ki, dünyanın ən uzun rels sisteminə malik körpüsünün açılış mərasiminə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, TBMM sədri İsmayıl Qəhrəman, baş nazir Binəli Yıldırım, sabiq baş nazir Əhməd Davudoğlu, həmçinin bəzi xarici ölkələrin yüksək səviyyəli dövlət rəsmiləri qatılıb.

Azərbaycanı tədbirdə Milli Məclisin sədri Oqtay Əsədov və Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov təmsil edir.

Çıxışlardan sonra körpünün açılışı olacaq.

Körpünün bünövrəsi 2013-cü ilin may ayında atılıb.

IX Osmanlı padşahının adını daşıyan Yavuz Sultan Səlim körpüsü 59 metr eni və 1408 metrlik uzunluğu ilə dünyanın ən geniş və uzun rels sisteminə malik "Asma körpü"sü adını qazanacaq. Körpünün üzərində avtomobillərin hərəkəti üçün 4 gediş və 4 dönüş olmaqla 8 hərəkət zolağı və iki dəmiryol xətti salınıb. Köprüdən keçən hər avtomobil 3, böyük yük maşınları isə 15 dollar ödəyəcək.

Asma körpünün konsept dizaynını və memarlıq işini isə məşhur fransız memarları icra edib. Körpüdə tamamlanma işləri yekunlaşıb, test yürüşləri həyata keçirilib.

Ekspertlər "Asma körpü"nün İstanbul tıxacını azaldacağını düşünürlər.

Qeyd edək ki, indiyədək İstanbulda iki "Asma körpü" fəaliyyət göstərirdi.



## Azay Quliyev Astanada nüvə tədbirində ATƏT PA adından çıxış edəcək

**Azərbaycan Respublikası Milli Məclisinin deputatları Azay Quliyev və Səməd Seyidov avqustun 27-dən 31-dək Qazaxıstanda səfərdə olacaqlar. Səfərdən məqsəd ölkənin paytaxtı Astana şəhərində keçiriləcək "Nüvə silahından azad dünyanın inşa edilməsi" adlı beynəlxalq konfransda iştirak etməkdir. Azay Quliyev isə ATƏT PA-nın vitse-prezidenti qismində bu qurumu təmsil edəcək. Bu barədə məlumatı Milli Məclisin mətbuat xidməti yayıb.**

**Millət vəkili, ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev** konfransın plenar iclasında ATƏT PA-nın adından çıxış edəcək və konfransın mövzusu ilə əlaqədar təşkilatın mövqeyini tədbir iştirakçılarının diqqətinə çatdıracaq.

Səfər çərçivəsində A.Quliyevin bir sıra ikitərəfli görüşləri, o cümlədən Qazaxıstan Senatının Sədri cənab Kasım-Jomart Tokayev ilə görüşü nəzərdə tutulub. A.Quliyevin Qazaxıstan Senatının Sədri ilə görüşü zamanı ilk növbədə bu ölkə ilə ATƏT PA arasında mövcud münasibətlərin durumu və gələcək perspektivləri müzakirə ediləcəkdir.

Görüş çərçivəsində həmçinin Azərbaycan ilə Qazaxıstan parlamentlərarası ikitərəfli münasibətlər, o cümlədən ATƏT PA çərçivəsində Azərbaycan və Qazaxıstan nümayəndə heyətləri arasında tərəfdaşlıq, bu tərəfdaşlığın daha da gücləndirilməsi və əlaqələrin daha sıx koordinasiya edilməsi məsələləri müzakirə ediləcəkdir.

## Bakıdakı banklarda dollar və avro ajiotajı

**Banklarda valyuta mübadiləsi ilə bağlı ajiotaj davam edir. Fins.az xəbər verir ki, hazırda bəzi banklar dollar satışına limiti 100 dollara qədər endirib, bəziləri isə satışı kassadakı balansa uyğun həyata keçirir.**

Belə ki, müştəri dollar almaq istəyirsə, bankın dollarla vəsaitinin olub-olmadığını məhz kassada öyrənir. Məsələn, **"Expressbank"** valyutanın satışına limit tətbiq etməsə də, müştəriyə kassadakı məbləğə uyğun dollar satır. **"Atabank"** da valyuta mübadiləsi eyni prosedura uyğun reallaşdırılır.

**"Xalq Bank"** avronun kursu ilə bağlı "özünəməxsus" məzənnə siyasəti həyata keçirir. Bankdan bildirirlər ki, avronun məzənnəsi kassada individual olaraq təyin edilir.

# Cahangir Hacıyevin işçisi üzünə durdu: "Allahınız olsun, niyə yalan danışırsınız?!"

## "Beynəlxalq Bank işi" məhkəməsində sensasion faktlar ortaya çıxdı; bank rəhbərinin sürücüsünün adına 16 milyon kredit ayrılıb

**Avqustun 25-də Bakı Ağır Cinayətlər Məhkəməsində "Beynəlxalq Bank işi"nə görə həbs edilənlərin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib. "Yeni Müsavat" qəzetinin məhkəmə prosesində iştirak edən müxbiri xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrlik etdiyi məhkəmə prosesində təqsirləndirilən şəxslər ifadə verib.**



Qeyd edək ki, ötən məhkəmə prosesində Cahangir Hacıyev özü ifadə vermişdi.

Prosesin əvvəlində Cahangir Hacıyevin vəkili Fəxrəddin Mehdiyev çıxışında məhkəmə proseslərinin tez-tez keçirilməsinə etiraz edib. O bildirib ki, həftədə 3 dəfə məhkəmənin keçirilməsi, müvəkkilləri ilə görüşmələrinə problem yaradır.

Hakim bildirib ki, təqsirləndirilən şəxslərin dindirilməsi başa çatana qədər məhkəmə bu şəkildə davam edəcək. Şahidlərin dindirilməsi zamanı isə vəkillərin bu vəsatətinə baxılacaq.

F.Mehdiyev digər təqsirləndirilən şəxslərin vəkillərinin Cahangir Hacıyevə ittiham edici suallar verməməsini istəyib və deyib ki, bu, vəkil etikasına sığmır.

Prosesin davamında təqsirləndirilən Anar Sultanovun ifadə verib.

O, 1997-ci ildən 2004-cü ilə qədər Beynəlxalq Bankda müxtəlif vəzifələrdə çalışdığını, 2004-2010-cu illər arasında isə Mərkəz filialının rəhbəri olduğunu deyib. Bildirib ki, qaydalara görə, baş idarənin göstərişi olmadan filialın təminatsız 2 min, təminatlı olaraq isə 5 min manat kredit vermək səlahiyyəti olub: "Bundan yuxarı kreditlər kredit komitəsi, idarə heyəti kimi qurumların qərarı ilə ayrılırdı. İstintaqdakı ifadəmi təsdiqləyirəm. Baş idarə qərar verəndən sonra kredit ayrılması məsələsində filial daha çox texniki rol oynayırdı. İdarə heyətinin qərarlarının icrası mənim üçün məcburi idi".

A.Sultanov daha sonra prokurorun suallarını cavablandırıb.

**Prokuror:**

- Cahangir Hacıyevə və yaxınlarına plastik kartlarla kredit verilibmi?

**A.Sultanov:**

- Banka müştərilər göndərilirdi. İdarə heyəti qərar verirdi, biz də onu icra edirdik.

**Prokuror:**

- Cahangir Hacıyev də daxil olmaqla, onun yaxınlarının adına kredit verilməsi ilə bağlı göstəriş kim tərəfindən verilib?

**A.Sultanov:**

- Cahangir Hacıyev tərəfindən.

**Prokuror:**

- Siz Cahangir Hacıyevə kredit verəndə onunla bağlı sənədləri yoxlandınızmı?

**A.Sultanov:**

- Mən ondan bu sənədləri tələb edə bilməzdim. Bizim bu işdə sırf texniki rolumuz olub.

**Prokuror:**

- Siz bilirdinizmi ki, banka aid olan şəxslərə kredit ayrılması üçün Müşahidə Şurasının qərarı olmalıdır?

**A.Sultanov:**

- Bizə idarə heyətinin qərarları çıxarış formasında gəlirdi.

Daha sonra A.Sultanov C.Hacıyevin sürücüsü Aydın Mehdiyevə kredit ayrılması ilə bağlı sualları cavablandırıb.

O deyib ki, İdarə Heyətinin 57 nömrəli qərarı ilə Aydın Mehdiyevə kredit verilib: "İttiham aktında yazılıb ki, guya mən onun imzasını saxtalaşdırmışam. Mən heç nəyi saxtalaşdırmamışam. Buna ehtiyac da yox idi. Aydın Mehdiyev Cahangir müəllimin sürücüsü idi. İşdə olurdu, başı qarışıq idi. Ona görə sənədləri imzalanması üçün baş idarəyə göndərmişəm. Oradan imzalanıb gələndən sonra kredit verilib. Həmin kredit 2009-cu ilin avqustunda bağlanıb".

**Prokuror:**

- Cahangir Hacıyevin sürücüsünün adına 9 milyon kredit verilməsi nə dərəcə doğru idi?

**A.Sultanov:**

- İdarə heyətinin qərarının icrası mənim üçün məcburi idi. Mən 2010-cu ilə qədər işləmişəm və işlədiyim müddətdə heç bir dəstədə olmamışam. Mənimsəməyə yol verməmişəm. Vəzifə səlahiyyətlərini yerinə yetirmişəm.

Prokuror Mərkəz filialından Cahangir Hacıyevin qızının, xanımının adına plastik kartlar verildiyini açıqlayıb. Məlum olub ki, Mərkəz filialından Cahangir Hacıyev də daxil olmaqla ümumilikdə 9 nəfərin adına kredit kartı açılıb.

Prosesin davamında Anar Sultanov Cahangir Hacıyevin suallarını cavablandırıb.

**Cahangir Hacıyev:**

- Adları çəkilən 9 nəfər şəxs hansı filialın müştərisi idi?

**Anar Sulatanov:**

- Mərkəz filialının müştəriləri idilər. İmza nümunələri də orada idi.

**C.Hacıyev:**

- İlkin sənədləri toplamaq kimin səlahiyyətində idi?

**A.Sultanov:**

- Filialın.

**C.Hacıyev:**

- Mənim tərəfimdən sizə göstəriş olmuşdu ki, qanunları pozun, sənədləri toplamayın?

**A.Sultanov:**

- Xeyr, olmamışdı.

**C.Hacıyev:**

- Çıxarılan vəsait kimə verilmişdi? Mənə, yoxsa burada oturanlara?

**A.Sultanov:**

- Xeyr.

**C.Hacıyev:**

- Mənə və ailə üzvlərimə verilən kartlardan Azərbaycan daxilində çıxarışlar olubmu?

**A.Sultanov:**

- Bəli.

**C.Hacıyev:**

- Bəzilərində aminiziya olur. Yəqin ki, digərlərində də olacaq.

Məhkəmənin davamında təqsirləndirilən İlqar Abdullayev ifadə verib.

O deyib ki, 2004-cü ildən Beynəlxalq Bankda işləyib. 2006-cı ildən filial müdirinin müavini olub. 2014-2015-ci illər ərzində filial müdiri vəzifəsini icra edib.

"Cahangir Hacıyevi bircə dəfə görmüşəm. Onu da İdarə Heyətinin iclasında təyinat alanda. Ona görə də mütəşəkkil dəstə mümkün olan iş deyil. Mən nə dəstə üzvü olmuşam, nə də mənimsəmədə iştirak etmişəm. Sadəcə vəzifəmdən irəli gələn işləri görmüşəm. İdarə heyətinin sədrlərinin müavinlərinin qərarlarını əsas götürmüşəm" - deyə İ.Abdullayev qeyd edib.

O, prokurorun suallarını cavablandıraraq deyib ki, özünün ittiham aktında yer alan 3 kredit müqaviləsində imzası var. Həmin vaxt isə filialın müdiri Yusif Ələkbərov işdə olmadığından o imzalayıb.

**Prokuror:**

- Müqavilələrin üçünün də eyni vaxtda imzalanması təsadüfdürmü?

**İ.Abdullayev:**

- Fikir versəniz, həmin kreditlərlə bağlı qərarlar müxtəlif vaxtlarda verilib.

Fasilədən sonra məhkəmə prosesi davam etdirilib.

Təqsirləndirilənlərdən İlqar Abdullayev dövlət ittihamçısının suallarını cavablandırıb.

O, heç bir vəsaitin mənimsənilməsində iştirak etmədiyini, pulların necə xərcləndiyini bilmədiyini deyib. Cahangir Hacıyevin özü ilə birbaşa ünsiyyəti olmasa da, onun adından verilən qərarları yerinə yetirdiyini söyləyib.

İfadə vermək növbəsi Yusif Ələkbərova çatıb. O, 2001-2012-ci illər arasında bankda işlədiyini deyib.

Filial rəhbəri olduğunu deyən Y.Ələkbərov heç bir mütəşəkkil dəstənin üzvü olmadığını bildirib.

Təqsirləndirilən Kənan Orucov da ifadə verib. Hazırda ev dustaqlığında olan Kənan Orucov ifadəsində bank yaranan gündən etibarən orada işlədiyini, 2003-cü ildən 2015-ci ilə qədər "Nəqliyyat" filialının müdiri olduğunu, sonradan öz ərizəsi ilə işdən çıxdığını bildirib.

Hazırda ev dustaqlığında olan təqsirləndirilənlərdən Məmməd Cahangirov isə ifadəsində bildirib ki, 2001-ci ildən 2011-ci ilə qədər Beynəlxalq Bankın Nərimanov filialının, 2011-ci ildən sonra isə "Sənaye" filialının müdiri olub.

O, bu müddət ərzində baş idarənin göstərişinə əsasən kredit verdiyini deyib: "Baş idarənin qərarları əsasında böyük kreditləri vermişəm. Aydın Mehdiyevin adına verilmiş kredit Ukrayna və Albaniyada metal biznesinə yönəlmişdi. Aydın Mehdiyev *(Cahangir Hacıyevin sürücüsü - red.)* mənə zəng edirdi və deyirdi ki, bu qədər kredit ayrılmalıdır. Mən də baş idarə ilə danışırdım. Orada olan Akif Əliyev bunun əleyhinə idi. Digər tərəfdən də Aydın Mehdiyev zəng edirdi. Mən də məcbur olub Arif Əliyevin yanına gedib dedim ki, Aydın Mehdiyev zəng vurub kredit ayrılmasını istəyir. Onun otağında olanda Arif Əliyev Cahangir Hacıyevlə əlaqə saxladı. Cahangir müəllim isə Akifə dedi ki, krediti verin. Bundan sonra kredit ayrıldı.

Cahangir Hacıyev isə çıxış edərək bu vəsaitin Ukrayna və Albaniyada armatur biznesinə ayrıldığını, sürücüsü Aydın Mehdiyevlə Məmməd Cahangirovun şərikli iş gördüklərinin deyib.

Məmməd Cahangirov isə Cahangir Hacıyevin bu çıxışına qəzəbli cavab verib: "Cahangir müəllim, Allahınız olsun, niyə yalan danışırsınız?! Mənim bu biznesə aidiyyatım olmayıb. Mənim iş yerimin dəyişdirilməsi də rotasiya qaydasında olub".

**C.Hacıyev:**

- Mən yalan danışmıram. Mən olanı deyirəm. Və əlavə olaraq qeyd edirəm ki, ittiham aktında göstərilən kreditlərin Məmməd Cahangirova aidiyyatı olmayıb.

**M.Cahangirov:**

- Adlarına kredit rəsmiləşdirilmiş şəxslərin "İnter Secrutiy" şirkətinin əməkdaşları olduğunu sonradan bildim".

Məhkəmədə "İnter Secutity" şirkətinin rəhbəri İbrahim Hüseynov da ifadə verib. Qeyd edək ki, İ.Hüseynov hazırda həbsdədir.

O deyib ki, işçilərini kredit götürməsi üçün banka özü göndərib. Bu işdə heç bir marağı da olmayıb:

- Biz Beynəlxalq Bankın baş idarəsini yox, digər strukturlarının mühafizəsini təşkil edirdik. Başqa müəssisələrlə, fiziki şəxslərlə müqavilə imzalamırdıq.

Aydın Mehdiyev zəng edirdi ki, etibarlı müştərilərdən göndər və bu qədər kredit almaq lazımdır. Mən də işçilərimdən göndərirdim.

Prokuror Fərid Nağıyev İ.Hüseynovdan bu göstərişi kimdən aldığını soruşub.

İbrahim Hüseynov bu tapşırığı rəhbərlikdən aldığını deyib.

İfadə sual-cavab şəklində davam edib.

**Prokuror:**

- Sənin işçilərin bilirdilər ki, kreditləri niyə alırlar?

**İ.Hüseynov:**

- Bir çox hallarda mən özüm də bilmirdim. Biz nə qrup olmuşuq, nə də cinayətkar".

**C.Hacıyevin vəkili:**

- Sizi nə vadar edirdi ki, kredit götürəsiniz?

**İ.Hüseynov:**

- Heç nə vadar etmirdi. Sadəcə etibarlı adam kimi mənə deyirdilər, mən də edirdim. İşçilərin də mənə hörməti var idi. Bilirdilər ki, bu işin arxasında mən dayanıram. Bu gün də mən ona görə buradayam ki, onlar məsuliyyətə cəlb olunmasın.

Məmməd Cahangirov ifadə verən İbrahim Hüseynova sual verib:

- Sənin işçilərinin adına kredit götürülüb. Mənim Aydın Mehdiyevlə biznes işində əlaqəm var idimi?

**İbrahim Hüseynov:**

- Mən bildiyim qədər yox idi.

Məmməd Cahangirov çıxış edərək götürülən kreditlərin bağlanmasını tələb etdiyini söyləyib: "Mən tələb edirdim ki, o kreditlər bağlansın. Aydın Mehdiyev mənə deyirdi ki, kreditlər Dünyamin tərəfindən bağlanmalıdır".

Hazırda həbsdə olan Bakı Fındıq Emalı Zavodunun rəhbəri Azad Cavadov ifadə verib.

O, 2002-2012-ci ilə qədər çalışdığı zavodun inkişaf etdirməyə çalışdığını deyib. O, ifadəsinə bunları əlavə edib: "Məni çağırıb dedilər ki, yeni iş yerləri yaradılmalıdır. Kənd təsərrüfatında çalışan adam kimi regionlarda iş yerləri yaradılması üçün konsepsiya hazırlamağımı istədilər. Mən də dedim ki, ancaq bu işi bacarıram. Bunun üçün maliyyənin lazım olduğunu bildirdim. Dedilər ki, problem yoxdur. Maliyyə ayrıldı və 2 min hektara qədər torpaq sahəsi aldıq.

2010-cu ildə vergidən gəlib yoxladılar. Mən də götürülmüş pulların hara xərcləndiyini dedim. Ancaq başa düşmək istəmirdilər. Cahangir müəllimin Allah balasını saxlasın. 10 milyonu ödədi. 7 milyonun da hara xərcləndiyi bəlli idi. Xaçmazda 300, Oğuzda 100, Balakəndə 100 hektar və digər yerlərdə fındıq sahələri alınmışdı. Özləri də getdilər baxdılar ki, həqiqətən bu yerlər var. Ancaq onlar bunu qəbul etmək istəmirdilər. Çox mübahisə etdik. Həmin əraziləri də aldılar, ardınca da pulu tələb etdilər. Axırda bizə dedilər ki, yeganə çıxış yolu budur ki, gedin şefinizlə danışın, kredit ayrılsın və borcları bağlayın. Bağları da götürdülər, pulları da aldılar. Kredit rəsmiləşdirildi. Borcu ödədim. İndi də o bağlardan fındıq yığılır. Mən müstəntiqdən soruşdum ki, bu nə olan məsələdir ki, biz həm pulu ödəyirik, həm də torpağımızı alırlar?"

**Məhkəmə avqustun 29-da davam etdiriləcək.**

**İlkin MURADOV**

YENİ MÜSAVAT
N 189 (6510) 27 avqust 2016

# "Son həbslər bilavasitə referendumla bağlı deyil"

## "Onlar referenduma, konstitusiya dəyişikliyinə qarşı lazım olan praktiki addımları atmadılar və atmırlar"

**"Azərbaycan hakimiyyətində bəzi qüvvələr Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimlinin həbs edilməsini və zərərsizləşdirilməsini istəyir". Bu barədə "Turan"a adının açıqlanmasını istəməyən məlumatlı mənbə bildirib. Mənbə qeyd edib ki, həbs ötən həftənin sonlarından növbəti məzuniyyətə getmiş dövlət başçısı İlham Əliyevin ölkədə olmadığı zamana planlaşdırılıb. Son günlər AXCP fəallarının həbsləri Əli Kərimlinin zərərsizləşdirilməsinə müqəddimə olmalıdır.**



İkram İsrafil

Xəbərdə son vaxtlar ard-arda həbs olunan AXCP üzvlərinin adlarını sadaladıqdan sonra qeyd edib ki, həyata keçirilən həbslər və planlaşdırılan həbslər əslində referendumla, referendumdan sonrakı dövrə hazırlıqla bağlıdır: "Əli Kərimlinin də zərərsizləşdirilməsinin nəyə lazım olduğu barədə suala cavabda mənbə bu məsələni Konstitusiyaya dəyişikliklər üzrə 26 sentyabr referendumu və ondan sonra hakimiyyətin İlham Əliyevin əlində cəmləşməsi dövrü ilə əlaqələndirib. Elə həmin dairələr hesab edirlər ki, Kərimli və onun tərəfdarları güclənməkdə olan sosial-iqtisadi böhran fonunda baş verən daxili siyasi proseslərə təsirlərini məhdudlaşdırmaq məqsədilə zərərsizləşdirilməlidir".

AXCP sədri də baş verənlərə münasibət bildirib. O, facebook səhifəsində yazıb ki, heç bir günahı olmayan AXCP üzvlərini, qohumlarımı həbs edib inciməkdənsə birbaşa onun özünü həbs etsinlər: "Sizin üçün problem mənəmsə, həbs edin. Əl çəkin günahsız adamlardan. Mən bu yola çıxanda, nəinki həbs edilməyimi, hətta ölümü də gözə almışam. Heç nədən qorxmuram. Evdəyəm, gözləyirəm. Hə, bəhanəniz yoxdur? Fikir etməyin, köməkləşib, bir şey düzüb-qoşarıq. Təki başqa günahsız insanlardan əl çəkin! Ancaq onu da bilin ki, sizi heç bir repressiya xilas etməyəcək!"

*Bəs ölkədə son vaxtlar siyasi həbslərə başlanmasında referendum amili rol oynayır?*

**Müsavat Partiyasının Divan üzvü İkram İsrafil** bildirdi ki, son həbslərin bilavasitə referendumla bağlığına inanmır. Referenduma görə həbslər olsaydı prosesdə aktiv iştirak edən müsavatçılar, imza toplayan müsavatçılar həbs olunardılar: "Son həbslər əsasən Gülən camaatı və vergidən yayınma ittihamları ilə həyata keçirilir. Referendumla bağlı imza toplama kampaniyasında müsavatçılara və bu prosesdə iştirak edən digər insanlara qarşı hədə-qorxu gəlindi, amma çox irəli gedilmədi, həbslərə əl atılmadı. Həbs olunan müxalifətçi dostlarımız imza topladıqlarına görə həbs olunmayıblar ki, deyək referenduma qarşıdırlar deyə həbs olunublar. Mən buradan "Yeni Müsavat" qəzeti vasitəsilə bəyan edirəm ki, 26 sentyabrda keçiriləcək referenduma qarşıyam. Gəlib məni həbs eləsinlər. Onda deyərəm ki, bəli, həbs olunanlar referenduma qarşı olduqlarına görə həbs olunublar".

**İ.İsrafil referenduma və konstitusiya dəyişikliyinə qarşı olduqlarını elan edən, lakin konkret iş görməyən, təşviqat qrupu yaratmayan, imza toplamayan qüvvələri tənqid etdi:** "Hər halda referenduma qarşı olanlar, hansısa forma tapıb ya birlikdə ya təkbaşına imza toplamalı idilər, ən azı buna cəhd etməli idilər. Bu fikirlərimi deməklə heç bir təşkilatı "imza toplaya bilməzdilər" deyə qınamaq istəmirəm. Amma heç bir təşkilatın və fərdin də Müsavatı bu məsələdə ittiham etməyə haqqı yoxdur. Avqustun 41 dərəcə istisində müsavatçılar ölkə boyu min bir əziyyətə imza yığacaq, kimlərsə kondinsionerli otaqda, fırlanan kresloda, qarnı tox, limonlu çay qabağında kompüterdə sosial şəbəkələrdə bizləri ittiham edəcək?! Yoxdur artıq elə şey. İndi hami bilir ki, kimin əli kimin cibindən çıxır, kimin başı kimin qoltuğundadır, gündüz müxalifətin, axşam hakimiyyətin yanında olanlar kimlərdir. Belələri referenduma, konstitusiya dəyişikliyinə qarşı lazım olan praktiki addımları atmadılar və atmırlar".

❑ **E.SEYİDAĞA**



# "Məni həbs edəcəklər"

## Əli Kərimli: "Problemləri mənimlədirsə, hazıram..."

**Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Əli Kərimli "Amerikanın səsi" radiosuna verdiyi müsahibədə həbs ediləcəyi ehtimalı ilə bağlı yerli mediada yayılan məlumatları şərh edib.**

Virtualaz.org bildirir ki, Ə.Kərimli deyib: "Mənim həbs olunmaq ehtimalım realdır. Prinsip etibarı ilə bir neçə müddətdir ki, hökumətyönlü media məni ciddi şəkildə şərləyir. Ətrafımdakı adamlar da sürətlə həbs olunurlar. Bu məlumata mən də rast gəldim, oxudum və təəccüblənmədim. Mənim üçün təəccüblü olmadı. Gözlənilir, belə bir hadisənin olması. Əslində belə daha yaxşıdır. Çünki ətrafımda olan günahsız insanları həbs edərək guya mənimlə bağlı zəmin yaratmaq istəyirlər... Problemləri mənimlədirsə, mən hazıram..."

"Bəs sizi hansı ittihamla həbs edə bilərlər" sualına isə AXCP sədri belə cavab verib: "Hökumət mətbuatı məni ölkədə "baş gülənçi" elan edib. Ona görə, güman etmək olar ki, məhz bu istiqamətdə hərəkət edəcəklər".

# Sabah Mahal İsmayıloğlunun il mərasimidir

## Qızı Ayan: "Varlığı nə qədər xoş idisə, yoxluğu bir o qədər incitdi..."



**Avqustun 28-də tanınmış jurnalist, "Xalq qəzeti"nin sabiq baş redaktoru Mahal İsmayıloğlunun ölümündən bir il ötür. Avqustun qora bişirən günlərindən birində, qızı Ayan zəng edib xəbər verməsi di redaksiyaya onun ölümünü. Atasının telefonundan... Bizimkilər də həmin nömrədən gələn zəngi görəndə hər zamankı kimi sevinclə açmışdılar telefonu: "Əfəndim, Mahal bəy... Eşidirik sizi..." Amma dəstəyin o biri ucunda ağlayan bir qızın səsi gəlirdi. "Atam yoxdur artıq..."**

Sabah ailəsinin də, Azərbaycan mediasının da Mahal bəyi itirməsindən 1 il keçir. Bu 1 ildə mətbuat onun bir çox qatı açılmamış kəlamları, köşələri ilə tanış ola bilərdi. Ailəsi onunla bir çox sevincini, gözəl anlarını paylaşa bilərdi. Yaşaya, əzizlərinə daha xoş anlar, günlər yaşada da bilərdi...

**Yenə qızı Ayan danışdı bizimlə. Mahal bəysiz keçən bir ilin özətini beləcə verir:** "Bu bir il ailəmiz üçün çox acı keçdi. Əzablı, əziyyət dolu keçdi. Varlığı bizi nə qədər xoşbəxt edirdisə, yoxluğu bir o qədər incitdi. Hər səhər evimizdə söhbəti gedir. Ən çox xoş zarafatlarını yada salırıq. Hər səhər anamla onu xatırlayırıq. İnanın ki, bu insanın bir pis cəhəti də düşmür yadımıza. Bizi sıxan, xətrimizə dəyən heç bir cəhəti olmayıb. Nəyləsə bağlı əsəbləşəndə də bunu bizə biruzə verməyib, əksinə, bizimlə danışmağı, bunu bildirməməyə çalışıb".

**Ayan atasız keçən bir ildə bəzi qohumlarının laqeydliyindən, mətbuatın, onun həmkarlarının soyuqluğundan şikayətləndi:** "Atamın öz tərəfi laqeyd oldu. İstəməzdik ki, belə laqeyd olsunlar. Dostları da laqeyd oldu. Atam sıradan bir itki deyildi. Onu təkcə ailəsi yox, media itirdi. Ona görə də xatırlanmasını çox istəyərdik".

M.İsmayıloğlunun məzarı Ramana qəbiristanlığındadır. Ailəsi bu bir ildə tez-tez onu ziyarət edib. İl mərasimi isə Bakı şəhəri Binəqədi rayonu, Əcəmi Naxçıvan küçəsi 18 A ünvanında baş tutacaq. Mərasimlə bağlı əlavə məlumat almaq istəyənlər isə 051 560 80 50 telefon nömrəsi və sadigovaayan@gmail.com ailto:sadigovaayan@gmail.com ünvanı ilə əlaqə saxlaya bilərlər.

"Yeni Müsavat" isə xatırladır ki, son 19 ildə xəstəlik tanınmış jurnalistin yaxasından əl çəkməyib. İlk əməliyyat 1998-ci ildə noyabrın 2-də Ankara nümunəvi xəstəxanasında baş verib. Həmin vaxt ürəyinin 1 damarı dəyişdirilib. 2003-cü ilin aprel ayında mykadi infarkt keçirib. 2004-cü ildə üryinin 4 damarından baypas əməliyyatı keçirib. 2010-cu ildə yenə ürəyindən ağır cərrahiyyə əməliyyatı keçirib. Ürəyinin 6 damarı dəyişdirilib.

2013-cü ildə isə daha bir ağır xəstəlik - böyrək çatışmazlığı da onda baş qaldırıb. Bütün cəhdlərə baxmayaraq müalicə mümkün olmayıb. 2014-cü ilin aprel ayında Türkiyədə sağ böyrəyi əməliyyatla götürülüb. Tezliklə eyni xəstəlik daha davamlı şəkildə sol böyrəkdə yaranıb. Böyrək çatışmazlığı ilə yaşamağa məcbur olub...

**Həkimlər ona böyrək probleminin gizli şəkildə özünü göstərdiyini bildiriblər. Ailəsinə böyrəyində kista olduğu deyilib, xərçəng barədə məlumat verilməyib. M.İsmayıloğlu ölən günə qədər böyrəyində xərçəng olduğunu bilməyib.**

❑ **SEVİNC**

# "Biz Gülənçilərə qarşı mübarizə aparmışıq"

## Elçibəyin Türkiyəyə göndərdiyi 50 tələbəni Fətullah Gülən şəbəkəsi ələ keçirmək istəyibmi?

**Azərbaycanda Fətullah Gülən tərəfdarlarına qarşı "təmizləmə əməliyyatı"nın aparıldığı bir vaxtda sabiq təhsil naziri Firudin Cəlilov mətbuata sensasion açıqlama verib. O bildirib ki, özünün nazir olduğu 1993-cü ildə Türkiyəyə göndərilən 2 min tələbə sonradan "gülənçilər"ə qoşulub: "Acınacaqlısı odur ki, mən Türkiyəyə təhsil almaq üçün 2 min tələbə göndərmişdim. Mənim nəzarətimdən çıxandan sonra Gülənçilər onların əksəriyyətini ələ keçirdi. Bunu dəqiq bilirəm".**



Əvəz Zeynallı



Ələsgər Məmmədli

Qeyd edək ki, daha öncə 1991-92-ci illərdə mərhum prezident Əbülfəz Elçibəyin xətti ilə Türkiyəyə 50 nəfərdən ibarət bir qrup təhsil almaq üçün göndərildi. Hazırda o qrupda təmsil olunanlardan əksəriyyəti ölkənin ictimai-siyasi həyatında mühüm yer tuturlar. Bəs görəsən həmin şəxslər Türkiyədə tələbə ikən Gülənçilərin fəaliyyəti ilə bağlı hər hansı məqamla rastlaşıblarmı? Onların təhsil sektoruna müdaxiləsi, tələbələri öz tərəfinə çəkmə çabaları ilə qarşılaşıblarmı?

Əbülfəz Elçibəyin xətti ilə Türkiyəyə təhsil almaq üçün göndərilən 50 nəfər tələbədən biri - **jurnalist Əvəz Zeynallı** "Yeni Müsavat"a açıqlama verərək bildirdi ki, təhsil almağa Əbülfəz Elçibəyin, yəni Xalq Cəbhəsinin xətti ilə gediblər: "Sonradan da dövlət xəttinə keçmişik. Türkiyə və Azərbaycan dövlətlərinin oxutdurduğu tələbələrik. Biz 1991-ci ildən bu günə kimi nurçularla hər zaman döyüşdə olmuşuq. 10 il nurçularla Türkiyədə, 10 il də Azərbaycanda döyüşmüşük. Bu mübarizənin ön xəttində olmuşuq. Azərbaycanda nurçuların, Fətullah Gülən tərəfdarlarının təhlükəsini bizim qəzetlərimizdən oxuyublar. "Xural" qəzetinin bütün mövcudiyyəti, araşdırma yazılar şəklində, dəyirmi masalar şəklində onlara qarşı mübarizə ilə keçib. Biz nurçularla döyüşün ön xəttində olmuşuq. O 50 nəfərlik heyətdə tanınmış media eksperti Ələsgər Məmmədli, Aqil Səmədbəyli, həkim Rəşad Mahmudov da var".

Əbülfəz Elçibəyin Türkiyəyə göndərdiyi tələbələrdən biri olan **media hüququ eksperti Ələsgər Məmmədli** də "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, həmin 50 nəfərlik qrupun içində Gülənçi olması ehtimalı yoxdur, çünki əksəriyyətinin cəmiyyətdə hansı mövqe tutduğu bəllidir: "Həmin 50 nəfərlik qrup Azərbaycan Kültür Dərnəyinin dəstəyi və Xalq Cəbhəsinin vasitəsilə ilə Türkiyəyə göndərilmişdi. Xalq Cəbhəsi o zaman imtahan keçirmişdi və 550 nəfərin içindən 50 nəfər seçib göndərmişdi. Həmin Kültür Dərnəyi 1991-ci ildə gənclər hökuməti ilə əlaqə yaratdı və o 50 nəfər dövlət universitetlərində təhsilini davam etdirdi. O, 50 nəfərdən bu gün cəmiyyətdə tanınanları da var. Doktor Rəşad Mahmudov hazırda Milli Məclisin deputatıdır. Aqil Səmədbəyli hazırda Türkiyədə fəaliyyətini davam etdirir, Əvəz Zeynallı "Xural" qəzetinin baş redaktorudur, Sabir Rüstəmxanlının oğlu Gündüz Rüstəmxanlı, başqa sosioloq və iqtisadçılar da var idi. Onların bir qismi Türkiyədə qaldı, orada fəaliyyətini davam etdirdi. Ola bilər ki, onlardan bir-iki nəfər "Camaat"a aid olan rəsmi qurumlarda qalsın. Lakin ümumi götürəndə həmin 50 nəfərin Gülənçilərlə əlaqəsinin olması gülünc görünür".

❑ **Nərgiz LİFTİYEVA**

# “Referendumdan sonra hökumətin fəaliyyətində ASAN xidmət modelinin tətbiqi mümkündür”

## Zahid Oruc: “Prezidentə komandasını yeniləşdirməyə heç kəs mane ola bilmir”

**Milli Məclisin deputatı Zahid Oruc 26 sentyabrda keçiriləcək referendum, konstitusiya dəyişikliklərin məqsədi, referendumdan sonra gözləntilər və digər məsələlər haqda “Yeni Müsavat”ın suallarını cavablandırıb.**

***- Zahid bəy, Azərbaycan hakimiyyəti referenduma hazırlaşır, onun siyasi rəqibləri isə iddia edirlər ki, referendumla bağlı ölkədə yeni siyasi həbslərə başlanıb. Əli İnsanovun barəsində yeni cinayət işinin açılmasının, Əli Kərimlinin həbs ediləcəyi haqda yayılan qeyri-rəsmi məlumatların gündəmə gəlməsi, bir sıra müxalifətçilərin artıq həbs olunmasını bununla əlaqələndirirlər. İddialar nə dərəcədə həqiqəti əks etdirir?***

- Cənubi Qafqaz ölkələri sırasında siyasi mənsubiyyətli, lakin həbsdə olan insanların sayına görə Azərbaycan Gürcüstan və Ermənistandan qat-qat yaxşı vəziyyətdədir. Mixail Saakaşvili dönəmindən sonra İvanaşvili hakimiyyəti əksər siyasi rəqiblərinə qarşı müxtəlif davalar açdı və onların böyük bir hissəsi həbsdədirlər. Saakaşvilinin özünün hakimiyyətə qayıdış yolunu bağlamaq üçün də ona cinayət işi qaldırılıb, ölkəyə dönəcəyi halda məsuliyyətə cəlb olunacağı bəyan edilib. Ermənistanda isə siyasi xarakterli həbslər, hətta qətllər illərdir davam edir. Buna axmayaraq Ermənistanın adını beynəlxalq qurumların hesabatlarında, nə də daxildə siyasi rəqiblərin dilində qabarıq şəkildə eşitmirik. Amma Azərbaycanda hər hansı bir şəxslə bağlı hüquqi xarakterli addımlar atılan kimi dərhal bu, siyasi kontekstdə təqdim olunur.

***- Bəs son həbslər nə ilə bağlıdı?***

- Düşünmürəm ki, referendum həbslərə geniş rəvac vermiş olsun. Zatən bütün digər siyasi qüvvələrin bu məsələ ətrafında ölkədə gedən prosesləri əngəlləmək gücü yoxdur. Yəni bir neçə şəxsdən danışılırsa, onun əsaslandırılmasını heç kəs verə bilməz. Əli İnsanov nazir olan vaxtlar müxalif qüvvələr tərəfindən o, ən odioz fiqur kimi təqdim olunurdu. Məhz Əli İnsanov daha çox suçlandırılırdı. Etiraf eləmək lazımdır ki, Əli İnsanov zatən o suçlamalarda olduğu kimi idi. Dəmir barmaqlıqlar arasına düşdükdən sonra ona müxtəlif qüvvələrin münasibəti dəyişdi. İndi kimlərsə Əli İnsanovdan Nelson Mandela düzəltmək, onu barmaqlıqların arxasından inqilabi bir lider kimi çıxarmaq niyyətinə düşüblər. Bu, ondan irəli gəlir ki, həmin qüvvələrin özlərinin elektoral gücü yoxdur və çox yaxşı bilirlər ki, hər hansı vasitə ilə hakimiyyətə güc göstərə bilməyəcəklər.

Əslində İsveçrədə və bir çox başqa ölkələrdə referendum az qala hər həftənin hadisəsidir. Orada müxtəlif ictimai problemlər bu cür xalq sorğuları ilə həll edilir. Bu mənada əslində referenduma hakimiyyətin xalqla dialoqu kimi yanaşmaq doğru olardı və cəmiyyətdə siyasi rəqabət mühitini bərqərar eləmək üçün referendumdan hər kəs yararlana bilərdi. Referendum əslində bütün hakimiyyət rəqibləri üçün yaxşı bir siyasi kampaniya ola bilərdi. Amma onlar yeniləşə bilməməklə, bir-biri ilə aralarındakı konfrontasiyaya son verə bilməməklə, buna nail ola bilmədilər.

***- Sanki belə bir rəy var ki, hətta hakimiyyətin yuxarı eşalonunda təmsil olunan məmurlar belə referendumun əsas hədəfi ilə bağlı məlumatsızdırlar. Gerçəkdənmi belədir? Məsələn, hakimiyyətə yaxın olan deputat Zahid Oruc bilirmi bu referendumun hədəfi nədir?***

- Biz ötən 15 il ərzində keçirilən 3 referendum haqqında yetərincə həm hüquqi, həm siyasi polemikalarda iştirak edə və sözümüzü deyə bilmişik, indi də belə olacaq. Şübhəsiz, bəlkə də qarşı tərəfin çox epizodik müqaviməti əsasında sizin qeyd etdiyiniz rəylər də meydana çıxıb. Ancaq hakimiyyət bu illər ərzində bütün digər qüvvələrdən fərqli olaraq hansı hədəfi qarşısına qoyduğunu çox yaxşı bilir. Məsələn, 2002-ci ildə müxalif qüvvələrin məchul bir günü qaralayıb mübarizə apardığı, Azərbaycanı təzədən 90-cı illərə qaytaracaqlarını elan etdiyi, İlham Əliyevin yeni bir siyasi lider kimi meydana çıxa bilməyəcəyini söylədikləri şəraitdə referendum keçirildi. Bununla da müxalifətin qeyd olunan nəzəri siyasi planlarının hamısı alt-üst oldu. Eyni zamanda istər hakimiyyətin içərisində birincilik uğrunda mübarizə aparanların, istərsə də xaricdən bu mübarizəni həyata keçirmək istəyən, Heydər Əliyev siyasi dönəmindən sonra ya prorusiya və ya proqərb rejimlərini bərqərar etmək istəyənlərin qarşısını kəsmiş oldu. 2009-cu ildə keçirilən referendum haqqında da eyni fikirləri söyləmək mümkündür. İndiki referenduma qarşı olanlar da yaxşı bilirlər ki, parlamentli respublika idarəçiliyi olsa belə, yenə də İlham Əliyevə rəqib deyillər. Yəni bu gün ölkənin birinci şəxsi bütün proseslərin önündədir, mənəvi siyasi cəhətdən də liderdir, ideoloji yönü də o verə bilir, ölkənin daxilində bütün əks maraq daşıyıcılarının hamısının mənafelərini uzlaşdırmağın öhdəsindən məharətlə gəlir, iqtisadiyyatda uzun illər özünü göstərən müəyyən başqa tendensiyaların da qabağını alır, islahatlara açılım göstərir, onun inqilabi vasitələrlə həyata keçirilməsinin qarşısını alır, xarici ölkələrin Azərbaycanı vassala çevirməsinə yol vermir. Ona görə də prezidentin partiyası istənilən siyasi kampaniyanı udar və parlamentli respublika idarəçiliyində baş nazir kimi ölkəyə rəhbərliyini davam etdirə bilər. Hakimiyyət qarşısındakı hədəflərinə doğru gedir. Referendum bu hədəflərə çatmaqda ciddi rol oynayacaq. Referendumun başlıca qayəsi, mənim aləmimdə, ölkənin gələcəyinə yönəlik müxtəlif planlar hazırlayanlara daha realist cavab verməkdir.

***- Müxalifət isə bəyan edir ki, Azərbaycan hakimiyyəti saxtalaşdırmasa istənilən seçkidə ona qalib gəlməyə hazırıq. Bu iddiaya cavabınız nədir?***

- Mən həm prezident seçkilərində, həm də parlament seçkiləri kampaniyalarında iştirak etmişəm. Qeyd edilən iddiaların real həyat tərəfini görə bilmişəm. Çox yaxşı xatırlayıram ki, onların hamısını narıncı rəngin ətrafında birləşdirib, hamısının əyninə narıncı libas geyindirəndə onlar həmin iddialarını bölgələrdə necə ifadə eləməyə çalışırdılar. Seçki kampaniyası müddətinin az olduğundan şikayət edənlər həmin prosesə gec qatılırdılar, imza toplama kampaniyasının xeyli hissəsini boşuna keçirirdilər, təbliğat kampaniyasına da cəmi 4-5 gün vaxt sərf edirdilər. Onların bölgələrdə durumları bundan ibarət olub. Bir qisim vətəndaşların yerli məmurların hansısa qanunsuz hərəkətlərindən, parlamentdə təmsil olunan deputatlarına narazı mövqedə olduğunu heç kim inkar edə bilməz. Siyasi olaraq biz reallıq hissini itirə bilmərik. Gerçəkdən də hər zaman ölkədə protest elektoratı olub. Bu ölkədə parlamentə, hökumətə kəskin müxalif olan sadə, heç bir partiyanın üzvü olmayan vətəndaş yalnız İlham Əliyevə etibarı hesabına ölkənin siyasi həyatında siyasi mövqeyini göstərib, İlham Əliyevin olduğu tərəfdə olub. Bu insanlar müxalif qüvvələri heç bir cəhətdən cazibədar, onların maraqlarını ifadə eləyən lider kontekstində görmürlər. 1990-cı illərdə meydan hərəkatı dövründə bunların yaşadığı epopeya onların kafasında qalıb, xalq onlardan çox-çox qabağa keçib, onlar isə kütlənin arxasından səslənməkdədirlər və hələ də deyirlər ki, istənilən seçkidə xalq bizə səs verər. Ölkə son illər böyük bir inkişaf yolu keçib. Ona görə də mən hesab edirəm ki, hakimiyyət siyasi mübarizəni udduğundan şərtləri də diktə eləməkdə haqlıdır.

***- Hakimiyyət özünə arxayındırsa, nədən referendum keçirir?***



**“Kimlərsə Əli İnsanovdan Nelson Mandela düzəltmək, onu barmaqlıqlar arxasından inqilabi bir lider kimi çıxarmaq niyyətinə düşüb”**

- Referendumun başlıca hədəfi hökumətin fəaliyyətində özünü göstərən mənfi tendensiyaları aradan qaldırmaq, islahatlara maneçilikləri durdurmaq, ölkəni çox normal, ədalətli bir cəmiyyət halına qovuşdurmaqdır. Təbii ki, iqtidarın rəqibləri də bunun əksini söyləyəcəklər. Ailə, varisçilik haqqında danışılanların da arqumentləri əsassızdır. Ona görə ki, Əliyev ailəsi hər hansı bir rəsmi görəv almadan da bu dövlətə və millətə ləyaqətlə xidmət edir. Ona görə də yaş senzinin aşağı salınması və sairlə bağlı müxalifət düşərgəsindən irəli sürülən iddiaların əsası yoxdur.

**“Referendum prezidentin xalqa uzanan əllərinə olan maneçilikləri ortadan qaldırmaq və insanların dövlətdən, hökumətdən gözləntilərini tam reallaşdırmaq üçündür”**

***- Zahid bəy, prezidentlik müddətinin 7 il olması nə üçündür? Müxalifət bunu da qeyri-demokratik sayır.***

- Prezidentliyin 7 il olması parlament və digər seçkili institutlara mənfi təsir göstərsəydi, Fransa bunu yüz illər ərzində tətbiq etməzdi. Hər bir ölkə özünün mental həyatına, tarixinə görə fərqlidir. Ona görə də bir Qərb ölkəsinin modelinin götürüb başqasına tətbiq edib onunla uğurlu nəticə ala bilməzsən. Hər ölkənin özünə məxsus fərqli idarəçilik həlqələri mövcuddur.

***- Nazirlər Kabineti ilə bağlı illərdir ki, tənqidlər eşidilir. İndi hakimiyyət düşərgəsi özü bu mövzuda danışmağa başlayıb - Nazirlər Kabinetinin çevik orqana çevrilməsinin vacibliyi vurğulanır. Referendumdan sonra Nazirlər Kabineti ilə bağlı hansısa ciddi addımlar atılmasına hazırlıq gedir?***

- Nazirlər Kabinetin danışırkən, məsələn, hörmətli Artur Rasizadədən bəhs etmirik. Ona görə ki, bu, sırf şəxs və şəxsiyyət amili ilə bağlı deyil. Referendum hökuməti, Nazirlər Kabinetini ləğv etmək üçün keçirilmir.

***- Onda belə çıxır ki, Artur müəllim baş nazir postunda qalacaq?***

- Bu illər ərzində təki bütün nazirlərin qapısı Artur Rasizadənin qapısı qədər açıq olaydı. Artur Rasizadə dövlətə sədaqətli olan, milləti istəyən, ulu öndər məktəbini peşəkarlıqla keçən və cənab prezident İlham Əliyevə də yaxından silahdaşlıq edən, fəaliyyətində də özünə tələbkar yanaşan məmurlardandır. Bu müzakirələrdə söhbət Nazirlər Kabinetinin daha çevik quruma çevrilməsindən gedir. Siyasi amillər bundan ibarətdir ki, dövlət başçısı maraqlıdır ki, verdiyi qərarların hər biri icra olunsun. Çünki Nazirlər Kabinetinə hər gün müxtəlif səpkili tapşırıqlar verilməkdədir. Bu, böyük bürokratik aparatı hərəkətə gətirmək üçün müxtəlif insanların peşəkarlıq əmsalı vacibdir. Nazirlər Kabineti bir hökumət modeli olaraq tamam fərqli bir fəaliyyətə keçə bilərdi. Referendumdan sonra hökumətin fəaliyyətində ASAN xidmət modelinin sürətlənməsi daha çox qabardıla bilər ki, bu, hamının xeyrinədir. Dövlət başçısına komandasını yeniləşdirməyə heç kəs mane ola bilmir. Çünki cənab prezidentin iradəsi qarşısında özünü vaxtı ilə toxunulmaz kastanın üzvü sayanlar da duruş gətirə bilməyiblər. Referendum idarəçilikdəki təkmilləşməni həyata keçirmək, prezidentin xalqa uzanan əllərinə olan maneçilikləri ortadan qaldırmaq və insanların dövlətdən, hökumətdən gözləntilərini tam reallaşdırmaq üçündür.

❑ **Etibar SEYİDAĞA**

**“Təki bütün nazirlərin qapısı Artur Rasizadənin qapısı qədər açıq olaydı”**

YENİ MÜSAVAT
N 189 (6510) 27 avqust 2016

# Ənvər Seyidovun hakimliyindən qan qoxuyan "güllər"

BACM-nin hakiminin Eldar Mahmudova yazdığı məktubun üzə çıxması barəsində hökm çıxaran Rəhim Qazıyevi də dilə gətirib; **sabiq nazir:** "Qanunsuz sifarişli hökmlərdən xəcalət çəkməyən bir adamı ifşa etməyə söz verirəm"

**Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Ənvər Seyidovun Eldar Mahmudova məktub yazması onu diqqət mərkəzinə çəkib. 2007-ci ildə Ə.Seyidovun sədrliyi ilə İran xüsusi xidmət orqanları ilə əməkdaşlıqda, qanunsuz silah və narkotik saxlamaqda ittiham olunan Səid Dadaşbəyli və daha 15 nəfərin məhkəməsi keçirilib.**



Proses zamanı ittihamın saxta olması sübut olunsa da, bu, hakimi günahsız gəncləri uzun müddətlərə azadlıqdan məhrum etməyə mane olmayıb. Hakim Ənvər Seyidov ittihamın gözgörəsi saxta olduğunu bildiyindən prosesi qapalı elan edərək bunu qonşu dövlətlə münasibətləri korlamamaq istəyilə bağlayıb.

**Ənvər Seyidovun hökmünə görə Səid Dadaşbəyli prezident olub!**

İttihamda isə elə məqamlar olub ki, hakim sadəcə, həmin məqamların üzərindən sükutla keçib. Ənvər Seyidovun iş üzrə hökmdə yazdıqlarından belə çıxır ki, 2006-cı ilin sonundan 2007-ci il yanvarın 13-dək ölkə prezidenti məhz Səid Dadaşbəyli olub. Bu haqda "Yeni Müsavat"ın 27 aprel tarixli sayında "Hakim Ənvər Seyidovun görənək səhvi" sərlövhəli yazıda qeydlər var və maraqlananlar bu linkə http://musavat.com/news/siyaset/hakim-enver-seyidovun-gorenek-sehvi_99422.html tıklamaqla tanış ola bilərlər. Ə.Seyidovun saxtalığına kimsənin şübhə etmədiyi ittihama əsaslanaraq 16 Azərbaycan gəncini, savadlı və ölkəni xaricdə təmsil etmək iqtidarında olan vətəndaşları həbsə yolladı. Ötən illər həmin gənclərin valideynləri üçün dəhşətli olmaqla yanaşı, bir çoxları üçün də faciəvi oldu - ən müxtəlif xəstəliklər tapıb dünyadan köçdülər. Üstəlik, Ənvər Seyidov ittihamın saxtalığını bilə-bilə milli təhlükəsizlik naziri Eldar Mahmudova məktub yazıb və xahiş edib ki, gəncləri həbsə alan Anti-Terror Mərkəzinin rəhbərliyi də daxil olmaqla əməkdaşları mükafatlandırılsınlar. Hakim belə bir məktub yazması qanunda nəzərdə tutulmayıb. Əslində Ənvər Seyidov Eldar Mahmudova gəncləri qanunsuz həbs edərək işgəncələrə məruz qoymuş əlaltılarının cəzalandırılması, gələcəkdə belə halların qarşısının alınması üçün məktub yazmalı, prokurorluğa isə cinayət işi başlanması üçün təqdimat göndərməli idi.

**Mənsur İbayev ölməmiş onun yaxınlarına verilən başsağlığından çıxan nəticə**

Amma bunları etməyib. Əvəzində bəh-bəhlə bir məktub yazıb. Bu gün isə həmin məktub fakta çevrilib. Ənvər Seyidov əvvəlcə belə bir məktub yazdığını danıb, amma ələhəzrət faktın ortada olduğunu bilincə məsələnin 10 il əvvəl olduğunu deməklə vəziyyətdən çıxmağa çalışıb. Amma ondan başqa cavab da gözləmək olardı. Məsələn, 2011-ci ilin bu günlərində o, dövlət qəzetlərində özü kimi neqativ ad çıxarmış hakim Mənsur İbayevin yaxınlarına başsağlığı vermişdi. M.İbayev əksər sifarişli işlərə baxır, yuxarıdan verilmiş direktivlərə əsasən hökmlər çıxarırdı. 2003-cü ildə həbs olunan siyasi liderlərin məhkəmə prosesində də məhz M.İbayev sədrlik etmişdi. Avropa İnsan Haqları Məhkəməsində baxılan və Azərbaycan dövlətinin təzminat ödəməsinə səbəb olan işlərin ən çoxu Mənsur İbayevin verdiyi hökmlərdən şikayətlərlə bağlıdır.



Lakin sonradan M.İbayevin ölmədiyi, yayılan xəbərin düzgün olmadığı üzə çıxdı. Ənvər Seyidov çıxıb dedi ki, başsağlığı elanını qəzetə verərkən səhvə yol verib və nəticədə belə bir xoşagəlməz situasiya yaşanıb. Görəsən, Ənvər Seyidov hökm çıxardanda da belə səhvlərə yol verdiyini etiraf edərmi?

Onun neqativ, ədalət mühakiməsi adına yamaq olan əməllərindən uzun-uzadı yazmaq olar. Məsələn, 2015-ci ilin martında sabiq müdafiə naziri Rəhim Qazıyev mətbuatda Ənvər Seyidov haqda fikirlərini açıqlamışdı.

**Ənvər Seyidov bu günə qədər də anlamayıb ki...**

Moderator.az-ın yayımladığı həmin yazının qısaldılmış şəkildə təqdim edirik.

**Sitat:** "Ağır Cinayətlər Məhkəməsinin hakimi Ənvər Seyidovun müsahibəsini oxudum. Oxucularınızın yadına salmaq istəyirəm ki, müsahibədə özünü az qala peyğəmbər kimi təqdim etməyə çalışan və hətta bir az da qabağa gedərək cızmaqaralarını "Allahın göstərişi" kimi qələmə verən həmin bu Ənvər Seyidov 1994-cü ildə Şuşa və Laçının işğalıyla bağlı gedən məhkəmə prosesində hakim kimi çıxış edirdi və mənə qiyabi ölüm hökmü çıxarmışdı. Onun necə bir hakim olduğunu və xarakterini, təfəkkürünü, hansı mənəvi dəyərlərin daşıyıcısı olduğunu çox gözəl bilirəm. Amma onun böyük istedad sahibi, yazıçı, şair olduğunu öz müsahibəsindən oxuyub agah oldum. Müsahibədə diqqətimi cəlb edən bir məqam onun gənc yazarları aşağılaması, onları təcrübəsizlikdən, maraqsız və yorucu yazmaqda ittiham etməsi oldu. Məni qıcıqlandıran ən vacib məqamsa onun Allahın göstərişi ilə yazı yazmasını dilinə gətirməsidir. Allahın adıyla danışan bir adam, Ağır Cinayətlər Məhkəməsində hakimlik edən Ənvər Seyidov bu günə qədər də anlamayıb ki, əslində hakimlər konstitusiyadan əlavə həm də elə Allahın göstərdiyi ən ali insani keyfiyyətləri - ədalətli olmağı və haqqı nahaqqa verməməyi, vicdanının səsinə qulaq asaraq Allaha xoş gedən hökm çıxarmaqda görəvləndiriliblər. Yeni Allah başqa peşə sahiblərindən fərqli olaraq insan taleyini həll etdikləri üçün hakimlərə tamam fərqli bir missiya həvalə edib. Amma təəssüf ki, Ənvər Seyidov mən tanıyandan hələ bir dəfə də ədalətli mövqeyi ilə seçilməyib".

**Çıxardığı qanunsuz sifarişli hökmlərdən xəcalət çəkməyən bir adam...**

Sabiq nazir Ə.Seyidovun barəsində fikirini davam etdirərək onu debata çağırmışdı: "Bu günə qədər çıxardığı qanunsuz sifarişli hökmlərdən xəcalət çəkməyən bir adamı onların gözləri önündə ifşa etməyə söz verirəm. Əgər bu adam vicdandan, namusdan dəm vurursa, buyurub gəlsin. Axı o özündə olmayan şeyi başqalarından necə və hansı haqla uma bilər? Bu adam haqqın, ədalətin nə olduğunu hardan bilər?"

**"Ənvər Seyidov bildirdi ki, görərsən necə ədalətli mövqedə dayanacam... barəmdə sifarişli hökm çıxardı"**

Sabiq nazir Ə.Seyidovun şəxsiyyətini xarakterizə edən çox maraqlı bir məqamı da açmışdı: "Məhkəmə başlayanda məni zala gətirib dəmir qəfəsə saldılar və fasilədə Ənvər Seyidov şəxsən mənə yaxınlaşaraq dedi ki, Rəhim müəllim, bax, əlimdəki bu məktubu sənin anan yazıb və mənim varlığımı yerindən oynadıb. Bunu deyib məktubu mənə uzatdı. Oxudum, anam yazmışdı ki, ay Ənvər Seyidov, Allah anana rəhmət eləsin, sən çox ağır bir yükün altına girmisən, bu işi ədalətli həll edə biləcəksənmi? Mənim bu məktubun yazılmasından qətiyyən xəbərim yox idi. Çünki MTN-də saxlanılırdım və heç bir görüş-filan da verilmirdi. Ənvər Seyidov mənə bildirdi ki, Rəhim müəllim, indi görərsən necə ədalətli mövqedə dayanacam. Onda anamın 74 yaşı vardı, indi 94 yaşı var və şükr Allaha ki, sağdır. İndi siz təsəvvür edin ki, anamın məktubunu oxuyub mənə and içən bir adam sifarişlə barəmdə ölüm hökmü çıxardı. Təsəvvür edirsinizmi? Ona görə də mən bu adam haqda fikir bildirməyi oxucuların mühakiməsinə buraxıram".

**P.S.** *Hakimin cavab haqqını tanıyırıq.*

❑ **E.MƏMMƏDƏLİYEV**

# Vəhhabi təhlükəsi unuduldumu...

Təhlükəsizlik üzrə ekspertlər bütün radikal cərəyanların diqqətdə saxlanıldığını deyir, amma...



**Türkiyədə 15 iyul hadisəsindən sonra bu çevriliş cəhdində əli olan Fətullah Gülənin tərəfdarları istintaqa cəlb edildi. Hadisə Azərbaycanda da Gülənçiləri yenidən diqqət mərkəzinə gətirdi. Baş Prokurorluğun yaydığı məlumata görə, burada da Türkiyədə dövlət çevrilişinə cəhddə ittiham olunan Fətullah Gülən tərəfdarlarına qarşı cinayət işi açılıb. Hazırda əsas diqqət bu dini cərəyanın üzvlərinə yönəlib.**

Bütün bu hadisələr fonunda İŞİD terror təşkilatı və digər dini radikal qruplaşmalar sanki nisbətən diqqət mərkəzindən kənarda qalıb. Onlar arasında xüsusilə radikal vəhhabilərin adını qeyd etmək olar. Hansı ki, onların fəaliyyəti dayanmayıb...

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan nnnnnmilli təhlükəsizlik nazirinin sabiq birinci müavini Sülhəddin Əkbər bildirib ki, radikal dini qruplaşmaların Azərbaycanda ciddi mövqeləri olub**: "Bu qruplar ötən illər ərzində ləğv edilmiş MTN-in də göz yumması ilə möhkəmləniblər. Onların arasında sona qədər araşdırılmayan ciddi əlaqələrin olduğu haqqında mətbuata da məlumatlar sızıb. Bütün bunlar nəzərə alındıqda söyləmək olar ki, radikal dini ekstremist qüvvələrin Azərbaycanda da kifayət qədər güclü mövqeləri olub. Sadəcə olaraq, onlara hələ hərəkətə keçmək əmri verilməyib. Onu da qeyd etmək lazımdır ki, bunlar təkcə bir mərkəzdən idarə olunmurlar. Dünyanın bir çox xüsusi xidmət orqanlarının onların içərisində nəzarət etdikləri qrupları var. O cümlədən Azərbaycanda da həmin qruplaşmaların içərisində xarici ölkələrin xüsusi xidmət orqanlarına bağlı olanlar yox deyil. Bunlar təbii ki, Azərbaycanın maraqları baxımından təhlükəli qruplardır. Azərbaycan hakimiyyəti hələ ki, bu uyuyan "hücrə"ləri oyatmaq istəmir. Diqqət etsək görərik ki, onların üzərinə çox getmirlər. Ancaq bu çıxış yolu deyil. Onlar nə zamansa hərəkətə keçmək haqqında əmr alacaqlar. Sadəcə, münbit şəraitin yaranmasını gözləyirlər. Həmin şərait yarandıqda isə artıq bizim üçün gec olacaq. Bu baxımdan hesab edirəm ki, Azərbaycan yaranmış vəziyyətdən istifadə edib, bu qrupların zərər vurduqları dövlətlərlə, onların xüsusi xidmət orqanları ilə birgə əməkdaşlıq şəraitində ciddi profilaktik tədbirlər görməlidir".

**S. Əkbər bildirib ki, illər keçdikdə radikal dini qruplaşmaların zəiflədiyini söyləmək olmaz:** "Əksinə, onlar daha da gücləniblər. Azərbaycan vətəndaşları beynəlxalq terror qruplarının daxilində, İraq, Suriyada döyüş əməliyyatlarında iştirak edirlər. Onlar döyüş, xüsusi əməliyyat, asimmetrik mübarizə təcrübəsi qazanıblar. Nəticədə isə daha təhlükəli hala gəliblər. Nəzərə alsaq ki, onlar hətta fərdi qaydada belə böyük itkilərə səbəb olacaq əməliyyatlar həyata keçirirlər, o zaman Azərbaycandakı təhlükənin miqyasını təsəvvür etmək mümkündür. Təhlükə həm terror qruplaşmalarının siyasi strateji mərkəzlərindən gələ bilər, həm də onların tərkibindəki başqa dövlətlərin adamlarından da verilə bilər. Düşünməyin ki, onlar ancaq bir mərkəzə bağlıdırlar".

**S.Əkbər hazırkı məqamda Azərbaycanın bütün bunlara qarşı hansı addımı atmalı olduğunu da bildirib:** "Bir şeyi nəzərə almaq lazımdır ki, hər bir ölkənin, o cümlədən Azərbaycanın təhlükəsizlik xətti təkcə onun öz sərhədlərindən keçmir. Təhlükəsizliyin ön xətti Azərbaycana düşmən olan dövlətlərin və qeyri-dövlət strukturlarının, siyasi və siyasi strateji qərar qəbul edən mərkəzlərindən keçir. Bu, birinci təhlükəsizlik xəttidir. İkinci xətt hər bir dövlətin strateji müttəfiqlərinin, yaxud da üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi təşkilatlarının sərhədlərindən keçir. Üçüncü təhlükəsizlik xətti həmin dövlətin öz sərhədindən keçir. Dördüncü xətt isə konkret hədəf olan strateji obyektlərdən keçir. Yəni ümumi şəkildə desək, gərək Azərbaycan təhlükəsizlik xidməti, kəşfiyyatı dörd eşelonlu, təhlükəsizlik müdafiə xətti qursun. Qalır dördüncüsü, yəni potensial hədəflərin qorunması. Bunun da vəziyyəti barəsində qəti fikir söyləmək çətindir. Müəyyən məqamlarda Rusiya xüsusi xidmət orqanları, müəyyən dərəcə strateji geoekonomik layihələrə görə də ABŞ-ın və Avropanın bəzi ölkələri, xüsusilə də Böyük Britaniya, Türkiyə və İsrail xüsusi xidmət orqanları bizə təhlükəsizlik məsələlərində yardımçı olurlar".

**Təhlükəsizlik üzrə ekspert İlham İsmayıl** isə "Yeni Müsavat"a bildirib ki, müxtəlif zamanlarda Azərbaycanda bu dini cərəyanın nümayəndələri aktivləşirlər: "Miqyası böyük olmasa da hər halda hiss olunur ki, bu məsələ nəzarətdə saxlanılır. Hesab edirəm ki, bu kimi aktivləşmələr Azərbaycanı hər hansı bir oyuna qoşmaq anlamını daşımır. Vəhhabilərin indiki haldakı gücü o səviyyədə deyil. Əhali sarıdan da onların tərəf qazanması mümkün deyil".

❑ **Əli RAİS**



# Akula sözünün kökü

Zamin HACI
zaminhaci@gmail.com

**"Qarabağ" futbol klubu Bakıda oyun udan gün Qaradağ rayon məhkəməsi 2-ci qrup Qarabağ əlili İlqar Rəsulova 30 sutka həbs cəzası kəsdi. Bu, yanıltmac deyil, həyatın yaratdığı təbii cümlədir. Həbsin səbəblərini bilmirəm, heç maraqlanmadım da. Təkcə Rəsulovun adının qabağında yazılan "AXCP üzvü" təyini bəs elədi.**

Başqa təyinlər də var, örnək üçün, biz okean sahilində yerləşmirik, ancaq çoxlu akula saxlayırıq. Bir dəfə şəkillər üsyana qalxıb polis maşınlarını-filanı aşırtmışdılar, o zaman Şəkinin polis rəisinə Akula Hamlet deyilirdi. Keçmiş MTN şefi Eldar Mahmudov işdən atılanda onun pulyığanlarından, işverənlərindən birinin Akula Akif ləqəbi ilə tanındığı, xaricə qaçdığı deyildi. İnterpol axtarırmış. Dünən isə "Yeni Müsavat" Eldar müəllimin ikinci yırtıcısı haqda məlumat yazmışdı, sən demə, bunun da adı Akula Pərviz imiş.

Əcəb işdir. Hacı Məmmədov "Beynəlxalq Bank"ın şefi Cahangir müəllimin arvadını oğurlayıb ilişəndən sonra - indi Cahangir müəllim özü də manatı oğurlamaqda ittiham edilir - məhkəmədə bir maraqlı fikir işlətmişdi: "Mən osminoqun yalnız bir qoluyam. Qalan qollar azadlıqdadır". Osminoq bizim dildə səkkizayaq deyilən bir dəniz canlısıdır. Ancaq indi belə çıxır ki, bizim cinayətkar okeanımızda osminoqlardan çox akulalar varmış. Bu çəkicbaş akula, o ağ akula, bu pələng akulası, o maliyyəçi akula, bu inhisarçı akula və sairə... Hər növdən akulamız yaşayır. Özü də bu sözü yaradanlar sanki sırf elə Azərbaycanı nəzərdə tutubdur!

İnanmırsınızsa, buyurun, öyrənin: "akula" sözü bizə rus dilindən keçib, onlar isə qədim island dilindəki "hakall" sözündən götürüblər. Bizdə rüşvətə, qanunsuz pul yığımına "haqq almaq" deyirlər. Dilin tarixi deyir "haqq al" - akulalarımız da alıblar. (Bu kəşfimə AMEA Dilçilik İnstitutundakı kilkələrdən patent istəyirəm. Əks halda görüm akulalara yem olsunlar, ilahi, amin!)

Bu yerdə oxucumuz Loğman Əbilzadənin məktubunu mütləq dərc etməliyəm: "Sizə olmuş bir hadisəni yazıram. Bir qohumum var, fəhlədir. O, bu yaxınlarda icra hakimiyyətinin həyətində tikintidə işləyirmiş. Bir gün icra işçilərindən gəlirlər fəhlələrin yanına, deyirlər ki, bəs icra hakimi gələcək, samovarda çay-zad dəmləyin. Bunlar da həvəslə çay-filan... İcra hakimi gəlib işə baxır, çay içir, söhbətləşir. İcra hakimi sonda deyir ki, kimin nə problemi varsa, deyin, həll edim. Mənim qohumum da deyir ki, sosial yardımımı vermirlər, özüm fəhlə, 2 uşaq atasıyam. İcra hakimi də deyir ki, ola bilməz, heç vaxt ola bilməz, qələt edirlər, get 1000 manat tap, gözlərinə sox, elə verərlər canları da çıxar".

Bu mənada, keçmiş bankir Cahangir müəllimin bütün günahları maliyyə naziri Samir Şərifovun üstünə atması qəbulolunmaz haldır. Cahangir müəllim manatın ölməsindən Suriyada vətəndaş müharibəsinə qədər hər şeyi Samir müəllimə yükləməyə çalışıbdır. Belə olmaz axı. Bir az mətanət nümayiş etdirmək lazımdır, bizim türmələrdən hələ bu cür çıxan olmayıbdır. Kimisə satmağın xeyri yoxdur. Daha doğrusu, bazar öləndən sonra, qarı şey olub, qapı örtüləndən sonra, satmağın nə mənası? Satırdın, bacarıb əvvəl sataydın, indi bəlkə bayırda akula supu yeyərək okeanariumdakı qardaş qırğınına tamaşa edərdin.

Beynəlxalq mənada da pis örnəklər yaradırsınız. Avropa Oyunlarını Bakıda qayıran Patrik Hikki adlı irland yəqin yadınıza gəlir. Azərbaycandan "Şərəf" ordeni də almışdı. Onu Braziliyada bilet alverində suçlayıb qoduqluğa basıblar. Bax, həmin Hikki müəllimin iki müavini srağagün onun üzünə durublar, kişini baqaja qoyublar, polisə ifadə verib deyiblər ki, Hikki biletləri təkcə çırpışdırıb, bizim xəbərimiz olmayıbdır.

Yoldaşlıq budurmu? Namərdlikdir. Bəlkə də pulları birgə basıb yeyiblər, ancaq indi adamı satırlar. Qeyrətli oğlan, o cümlədən Azərbaycanın əsrlərin dərinliyindən süzülüb gələn mərdlik, qiryət, namus, ədalət, dostluq anlayışları bulağından su içmiş adam gərək satqınlıq etməsin. Düzdür, bu halda Hikki müəllim satqınlıq etməyib, onun özünü satıblar, ancaq yaxşı oğlan gərək özünü satmağa da imkan verməsin. Özü də bir neçə biletə. Ar olsun.

İndi söz əlaqədar təşkilatlarındır.

# Ermənistanın İranla iqtisadi münasibətləri və Samvel Aleksanyanın araq yüklü eşşəkləri...

## Erməni KİV-ləri Serj Sərkisyanın xarici siyasətini və ona yaxın olan oliqarxları topa tutur

**Son vaxtlarda İranla iqtisadi münasibətlərin genişləndirilməsi mövzusu Ermənistanda yenidən dəbə minib. Ermənistan hakimiyyəti, xüsusilə Serj Sərkisyan komandası cənub qonşumuzdan bir çox məsələyə görə mədət umur.**




**Ermənistanın baş naziri Ovik Abramyan Avrasiya İqtisadi İttifaqının baş nazirlərinin Soçidəki toplantısında İran-Ermənistan azad iqtisadi zonasının yaradıldığını bəyan edib. Ovik Abramyanın sözlərinə görə, bu həm Meğri rayonunun, həm də bütövlükdə Ermənistanın inkişafı üçün yeni imkanlar açır.**

Erməni mətbuatının yazdığına görə isə Abramyan əslində guya İranın Ermənistan vasitəsilə Avrasiya İttifaqına çıxış əldə edəcəyi kimi köhnəlmiş, lakin ölkə üçün heç bir xeyri olmayan, tezisi təkrarlayıb.

Erməni KİV-ləri Abramyanın elə bu şüarlarla seçkiqabağı dövrü başa vuracağını düşünür. İranla azad iqtisadi zonanın yaradılması da Ermənistan hakimiyyəti, daha doğrusu onun kriminal oliqarxiyası üçün bu cür ideyalardan sayıla bilər.

Erməni mətbuatı İranla Ermənistan arasında tək real iri iqtisadi layihənin hələ çəkilməsi planlanan qaz kəməri olduğunu yazır. Lakin bu layihə də gələcək gəlirlərin Rusiya "Qazprom"unun cibinə gedəcəyi səbəbindən olduqca səmərəsiz görünür.

Bu səbəbdən Ermənistan hökuməti İranla əlaqələrində azad iqtisadi zona ideyasından bərk yapışıb. Onların fikrincə bu vasitəylə Ermənistan Avrasiya ittifaqı üçün qapı rolu oynaya bilər.

Ermənistanın iqtisadçı analitikləri isə bununla bağlı olaraq bədbinliklə əllərini yelləməklə məşğuldurlar.

Onların fikrincə Ermənistanın bu təşkilata üzvlüyü sayəsində iqtisadi vəziyyəti nəinki düzəlməyib, hətta prosedur planda ixracatla, hətta ümumilikdə iqtisadi perspektivlərlə bağlı böyük problemlər yaranıb.

Bundan başqa, Putin Serj Sərkisyanla avqustun 10-da görüş zamanı lağ edirmişcəsinə, Ermənistanın Avrasiya İttifaqına üzv olduqdan sonra ÜDM-in 10 faiz artdığını söyləyib.

Ermənistanda isə bu sözlər başqa cür yozulur. Onların fikrincə ağır iqtisadi böhran dövrünü yaşayan Putin Rusiyası İrəvandan Avrasiya İttifaqından başqa nəsə gözləməməsini, Rusiyaya artıq xahişlərlə müraciət etməməsini və problemlərini özünün həll etməsini istəyib. Bu mənada, İranla azad iqtisadi zona haqqında saziş Ermənistanın Rusiyadan qopardığı maksimum güzəşt sayıla bilər.

Bundan başqa, öz nəhəng iqtisadi göstəricilərinə və gücünə görə Ermənistanla müqayisəyə belə gəlməyəcək İran üçün bu iqtisadi zonanın perspektivi sadəcə rişxənd doğura bilər. Ermənistanın İran üçün Avrasiya İttifaqına qapı olması məsələsi də qonşu ölkədə gülüşlə qarşılanıb: Ermənistanın heç bir Avrasiya İttifaqı ölkəsi ilə quru sərhədi yoxdur:"İrana müasir sistemləri, çağdaş düşüncə qabiliyyətinə malik, biznes strukturları olan dövlət lazımdır. Daha postsovet ölkələrin korrupsiyalaşmış sistemi üçün dam rolunu oynayan Avrasiya İttifaqı yox", - deyə 1.in.am saytında qeyd olunur.

Erməni iranşünası Armen Vardanyan da İranla iqtisadi münasibətlərdə sonuncunun Azərbaycanı daha çox tərcih etdiyini etiraf edir: "Rusiyanın Azərbaycana təqdim etdiyi bir sıra iqtisadi proqramlarda Şimal-Cənub dəhlizinin Ermənistandan deyil, Azərbaycandan keçməsi ilə bağlı təhlükə (Ermənistan üçün - red.) yaranıb".

"İranla Azərbaycan arasında münasibətlər Ermənistan-İran münasibətlərindən bir baş yuxarıdır. Azərbaycan və İran prezidentlərinin 7 dəfə görüşməsinə rəğmən, Ermənistan və İran dövlət başçıları bir dəfə də rəsmi şəkildə görüşməyiblər. Bu isə mühüm göstəricidir", - deyə Armen Vardanyan erməni jurnalistlərinə bildirib.

Onu da qeyd edək ki, Ermənistan iqtisadi planda böyük investisiya layihələrini cəlb etməyi düşünür.

Erməni saytlarının yazdığına görə, bu ilin oktyabrın 10-u və 11-də Nyu -York şəhərində Ermənistan iqtisadiyyatına investisiyaların cəlb edilməsi ilə bağlı forum keçiriləcək. Bu barədə Ermənistanın inkişaf fondunun rəhbəri Karen Mkrtçyan"Amerikanın səsi" radiosuna məlumat verib.

Onun sözlərinə görə forumda Ermənistan prezidenti Serj Sərkisyanın, habelə Dünya bankı, Asiya İnkişaf Bankının və müxtəlif şirkətlərin rəhbərlərinin iştirak edəcəyi gözlənilir: "Bu son 15 ildə ilk belə tədbirdir və bizdə hələ investorların siyahısı yoxdur", deyə Mkrtçyan qeyd edib.

Forumun təşkilatçıları Ermənistan hökuməti və Asiya İnkişaf Bankıdır.

Forumda Ermənistan iqtisadiyyatının 8 sahəsi və onların dəstəklənməsinə yönəlik dövlət proqramları təqdim olunacaq.

İnvestorlara təqdim olunacaq layihələrin içərisində dəmiryol yük daşımaları, kənd təsərrüfatı, o cümlədən Şimal-Cənub yolunun tikintisi də yer alıb.

Mkrtçyan iqtisadiyyatın korrupsiya içərisində olduğunu etiraf etməklə bərabər, bir sıra Avropa və ABŞ şirkətlərinin öz mallarını heç bir rüsum ödəmədən Rusiyaya və Avrasiya İttifaqının digər ölkələrinə satması üçün Ermənistanın platforma rolu oynaya biləcəyini söyləyib.

Maraqlıdır ki, həmin şirkətlərin öz mallarını Rusiyaya nə üçün birbaşa deyil, məhz Ermənistan vasitəsilə satmaq istəyəcəklərinə müsahib aydınlıq gətirməyib.

Bununla belə, Ermənistanın Avrasiya İttifaqında "topdan satış bazar" olması perspektivindən dəm vuran Karen Mkrtçyan Ermənistanın məhz elə həmin ittifaqa qoşulduqdan sonra ölkəyə qoyulan sərmayə həcminin azaldığını etiraf etməyə məcbur olub: "Əgər Ermənistan üçün təşkil edilən beynəlxalq forumların, konfransların, investisiya müzakirələrinin praktiki plan və addımlar halında heç olmasa 25 faizi reallaşdırıla bilsəydi Ermənistan müstəqil olduğu 25 ilə ərzində tamamilə başqa siyasi, sosial-iqtisadi mənzərəyə malik olardı" deyə, 1in.m saytının analitiki Aram Amatuni yazır: "Ermənistana 25 ildir hakim kəsilən indiki mənzərə isə bu cür forumların işıqlı perspektivinə kölgə salır", yazaraq, müəllif davam edir.

"Ermənistanın daxili idarəsi kriminal-oliqarxik əxlaqla həyata keçirildiyinə görə, dünyanın sərmayə potensialına müvafiq gəlmir. Ermənistanın xarici siyasəti dünyadakı proseslərə və vektorlara tərs istiqamətdə, küləyin əksinə həyata keçirilir. Bu isə beynəlxalq investorlarda heç bir inam təlqin edə bilməz", deyə müəllif qeyd edib.

Sonda qeyd edək ki, Ermənistan mətbuatında prezident Serj Sərkisyana yaxın erməni oliqarxlarının İraq Kürdüstanında biznesi barədə maraqlı məlumatlar dolaşmaqdadır.

Erməni KİV-lərində hakim "Respublika" partiyasının deputatı, oliqarx Samvel Aleksanyanın İraqda öz spirtli içkilər biznesini genişləndirdiyi barədə xəbərlər çıxıb.

Ermənistan mətbuatının yaydığı xəbərə əsasən Aleksanyan indi özünün qaçaqmal içkilərini İraq Kürdüstanına göndərməklə məşğuldur.

Qeyd olunur ki, Ermənistanda istehsal olunan, lakin keyfiyyətcə aşağı sayılan araq və viskilərin İraqa ixracatı üçün Aleksanyan hər konteynerə görə 20 min dollar ödəyirmiş.

Bu səbəbdən erməni oliqarx İraqda kürdlərin nəzarət etdiyi bölgədə, Ərbil şəhərində araq zavodu tikdirməklə məşğuldur.

Erməni KİV-lərinin verdiyi xəbərə görə, Samvel Aleksanyan həmin içkiləri islam dövləti sayılan İrana qaçaqmal yolu ilə nəql etmək məqsədilə 2000 eşşək alıb.

**Kim bilir, İranla əlaqələrin bəlkə də elə bu eşşəklər vasitəsilə qurulması planlaşdırılır...**

**❑ Vaqif HÜSEYN**

YENİ MÜSAVAT
N 189 (6510) 27 avqust 2016




# Amerikanın Prezident Əliyevə işi düşüb...

## Pentaqonun yeni Bakı planı -nüvə başlıqları təklifi...

**İncirlikdəki nüvə başlıqlarının bir qismi Azərbaycana təklif oluna bilər, Amerika generalları İran və Rusiya ittifaqına qarşı yeni plan hazırlayır; ABŞ-ın Müdafiə Nazirliyinin hesabatında yazılır ki...**

**Türkiyə və ABŞ arasında münasibətlərin soyuqlaşması iki ölkə arasında hərbi əməkdaşlığın gələcəyi ilə bağlı suallara səbəb olub. Məlum olduğu kimi, Türkiyə “Soyuq müharibə” illərində NATO-ya üzv olub və ABŞ-la yaxın hərbi əməkdaşlıq edib. Türkiyə ərazisində bir neçə ABŞ və ya NATO hərbi bazaları qurulub. Hətta “Karib böhranı” zamanı ABŞ SSRİ-yə qarşı Türkiyə ərazisinə nüvə başlığı daşıyan “Yupiter” raketləri yerləşdirib.**

Daha sonra “Yupiter” raketləri Türkiyədən götürülsə də, İncirlik Hərbi Hava bazasında nüvə başlıqları saxlanılıb. Türkiyədəki 15 iyul çevriliş cəhdindən sonra ABŞ generalları özləri də bunu etiraf etdilər. Ötən həftə isə Avropa mətbuatı İncirlikdəki raketləri Rumıniyaya köçürəcəyi haqda xəbər yayıb. İddialara görə, artıq proses başlayıb və 20-yə yaxın nüvə başlığı Rumıniyanın Deveselu hərbi hava bazasına köçürülüb. Ancaq proses ləng gedir, həm texniki, həm də siyasi problemlər yaranıb.

Qeyd edək ki, Rumıniyada yerləşən Deveselu hərbi bazası bu ilin mayında gündəmə gəlib. ABŞ məhz bu bazada Rusiyaya qarşı raketdən müdafiə “qalxanı” inşa edib. Avropanı Rusiya hücumundan qorumalı olan 800 milyon dollarlıq layihə Rusiyanın ciddi etirazlarına səbəb olub. Ancaq hələlik Rumıniya bu iddiaları təsdiq etmir.

Türkiyədə 15 iyul qiyamından sonra İncirlik hərbi bazasının taleyinin gündəmə gəlməsi, xüsusən də nüvə başlıqlarının Türkiyədən çıxarılması qarşılıqlı ittihamların artdığı bir zamana təsadüf edir. Yeri gəlmişkən, bir qədər əvvəl ABŞ-da yerləşən bəzi “beyin mərkəzləri” nüvə başlıqlarının Türkiyədən çıxarılması təklifini irəli sürüb. Buna əsas səbəb kimi, qiyam zamanı bir çox generalların ölkəsinə xəyanət etməsi göstərilib. İddia müəlliflərinə görə, ölkəsinə xəyanət edən generallar bu nüvə silahlarını terrorçulara verə bilərlər. Lakin səbəb yalnız bu deyil...

Hər kəsə məlumdur ki, nüvə silahları partlayış gücündən daha çox, psixoloji silah olaraq qəbul olunur. ABŞ-ın Türkiyədən nüvə başlıqlarını çıxarıb Şərqi Avropaya aparması da bu mənada, Türkiyəyə və eləcə də Rumıniyaya yerləşdirməklə Rusiyaya açıq mesajdır. Ancaq maraqlıdır ki, hazırda Türkiyədən çıxarılan nüvə başlıqlarının yalnız 20-sinin Rumıniyaya aparıldığı iddia olunur; yerdə qalan 30 (Türkiyədə “soyuq müharibə” illərində 50-100 arası nüvə başlığının olduğu haqda bilgilər yayılıb - K.R.) nüvə başlığının taleyi haqda hər hansı məlumat yoxdur.

Yeri gəlmişkən, daha əvvəl də Türkiyədən çıxarılacaq nüvə başlıqlarının digər regionlara yerləşdiriləcəyi ilə bağlı məlumatlar yayılıb. Nə qədər gözlənilməz hesab olunsa da, Türkiyədən çıxarılacaq nüvə başlıqlarının bir qisminin yerləşdiriləcəyi yeni ünvanlar arasında Azərbaycanın da adı çəkilir. İddialara görə, ölkəmizin adı bu məsələdə Pentaqonun planına daxil edilib.

Bu barədə bizə diplomatik mənbələrdən bilgi sızıb. Həmin bilgilərdə iddia olunur ki, hazırda Pentaqon Türkiyənin İncirlik Hərbi bazasından çıxarılacağı ehtimal edilən nüvə başlıqlarının yerləşdiriləcəyi yeni ölkələr arasında Azərbaycanı da araşdırır. Məlum olduğu kimi, bu nüvə başlıları “soyuq müharibə” illərində SSRİ-yə, indi isə böyük ölçüdə Rusiyaya qarşı hərbi təzyiq vasitəsi olaraq istifadə edilir. Azərbaycanın da geostrateji mövqeyi, Rusiya və İranla sərhəddə yerləşməsi nüvə başlıqlarının yerləşdirilməsinə namizədliyi üçün uyğundur. Bu ideyaya Azərbaycan hakimiyyətinin necə yanaşması məlum deyil; lakin bilinən budur ki, rəsmi Bakı Pentaqonla bir sıra sahələrdə ciddi əməkdaşlıq içərisindədir və Azərbaycanın Amerika üçün dəyəri üzdə göründən qat-qat yüksəkdir...

**“Nüvə başlıqları Bakıya təklif oluna bilər”, şərti başlıqlı xəbərini diplomatik qaynağımız bu cür əsaslandırır:** “Hazırda Rusiya bölgədə təsir gücünü günü - gündən artırır. Son illərdə İranla da ciddi şəkildə yaxınlaşan Moskva bu ölkənin dini rəhbərliyinin başında dayandığı mühafizəkar qanadla yaxından əməkdaşlıq edir. Eyni zamanda, İranın dini hakimiyyəti Rusiya ilə dərin ittifaqa üstünlük verir. Rusiya isə bu yaxınlaşmanın qarşısında gizli olaraq İranın nüvə proqramına böyük dəstək verəcəyini bildirib. Eyni zamanda, Vaşinqton İranın uranın zənginləşdirilməsi prosesini yenidən aktuallaşdıracağından ehtiyatlanır”.

Diplomatik dairələrə yaxın olan mənbəmiz iddia edir ki, hazırda Rusiya ilə İran arasında müdafiə sahəsində gizli və dərin anlaşma əldə olunub. Bu anlaşmaya əsasən, Rusiya İranı “S-300” və “S-400” hava hücumundan müdafiə sistemləri ilə təmin edəcək. Bu isə o deməkdir ki, artıq Suriyadan sonra, İranda da bu komplekslər mövcud olacaq.

**Məlumatda o da vurğulanır ki, Rusiyanın İrana yeni silahlar verməsi məhz ABŞ-a və onun regiondakı fəaliyyətlərinə qarşıdır:** “Pentaqon məhz bu şərtləri nəzərə alaraq Azərbaycanla hərbi əməkdaşlıq danışıqlarını yenidən bərpa etmək, əməkdaşlığı genişləndirmək və İncirlikdə yerləşən nüvə başlıqlarının bir qismini Azərbaycana yerləşdirmək üçün Bakının razılığını əldə etməyə çalışır. Əgər bu olarsa, Bakı əlavə güc çətiri əldə edəcək”.

Lakin o da məlumdur ki, Azərbaycan qanunlarına və Konstitusiyasına görə, ölkəmizdə nüvə başlıqlarının yerləşdirilməsi, xarici hərbi bazaların qurulması mümkünsüzdür. Mənbəmizsə iddia edir ki, əsas olan Azərbaycan siyasi hakimiyyəti ilə danışıqların başlaması və daha sonra da, anlaşmaya varılmasıdır. Bundan sonrası, prosedur məsələsidir:

“Amerikanın hərbi hakimiyyəti iddia edir ki, əgər İrana o silahlar gedərsə, bu, o deməkdir ki, regionda güc balansında dəyişiklik olacaq və Rusiya regiona nəzarəti tamamilə ələ keçirəcək. ABŞ siyasi hakimiyyəti hazırda İranın siyasi rejimi ilə əməkdaşlıq edir; lakin Pentaqondakılar hesab edir ki, dini rəhbərlik İranın siyasi iqtidarı üzərində mütləq nəzarətə sahibdir və istədiyi zaman, prosesi durdura, tərsinə çevirə bilir”.

**Mənbəmizin iddialarına görə, İrana veriləcək “S-300” və ”S 400” raketlərinin istifadəsi əslində iranlıların deyil, rusların kontrolunda olacaq:** “Bu isə, Türkiyə başda olmaqla Azərbaycan, Gürcüstan və Türkmənistan üçün də təhdiddir. Məhz bu qorxulu perspektivin qarşısını almaq və regionda güc balansının pozulmasını önləmək üçün Amerikanın hərbi strateqləri müəyyən tədbirlər planlayıblar. Əks halda, ABŞ-ın Cənubi Qafqazda varlığına son qoyula bilər. Bu baxımdan, hazırda Pentaqonun timsalında ABŞ-ın prezident Əliyevə ciddi ”işi düşüb”. Pentaqon onunla danışıqlar masasına oturmaq və İncirlikdə olan nüvə başlıqlarının bir hissəsini təhlükəsizlik bəhanəsi ilə Azərbaycana təklif etmək niyyəti güdür. Burada məqsədlərin ən birincisi isə, Rusiya və İranın bu planı, gedən prosesi bilməsidir. Pentaqon bununla da Rusiyanın mesajlarına ciddi bir cavab mesajı vermiş olur; bəlkə də bununla Rusiya və İranı yuxarıda qeyd olunan istiqamətdəki dərin hərbi əməkdaşlıqdan çəkinməyə sövq edə bilər... Çünki ruslar yaxşı bilir ki, Amerikanın nüvə başlıqları bir nəsil yeni başlıqlardır. Rusiyada isə köhnə nəsil nüvə başlıqları mövcuddur. Cənubi Qafqazda bu cür bir ABŞ sistemi olarsa, Gürcüstanın NATO yolu daha da sürətlənəcək və Azərbaycan daha rahat nəfəs ala biləcək...”

O da bildirilir ki, buna oxşar məlumatlar Pentaqonun yeni təhlükəsizlik hesabatında da yer alıb. Əgər hesabat qəbul olunarsa, yaxın dövrdə danışıqlar prosesi başlaya bilər.

**Ancaq nəzərə almaq lazımdır ki, bu addım həm də ciddi risk daşıyır və Rusiya ilə İranın ciddi təpkisinə, hər cür təxribatlara səbəb ola bilər.**

❑ **“Yeni Müsavat”**

# “Dağlıq Qarabağ münaqişəsinin qanun çərçivəsində ədalətli həllinə tərəfdarıq”

## Rus Pravoslav Kilsəsi Azərbaycanın Rusiyadakı səfirliyinə məktub yolladı



**“Rus Pravoslav Kilsəsi dəyişməz və ardıcıl olaraq Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının və fikir ayrılıqlarının qarşılıqlı məqbul həll yollarının qanun çərçivəsində axtarışının tərəfdarıdır”.**

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bu barədə Rusiya Pravoslav Kilsəsindən Azərbaycanın Rusiyadakı səfirliyinə daxil olan məktubda bildirilib.

Səfirliyin Pravoslav Parlamentlərarası Assambleyasının XXIII konfransının yekun bəyannaməsi ilə bağlı göndərdiyi müraciətə cavab məktubunda qeyd olunub ki, Rus Pravoslav Kilsəsi Dağlıq Qarabağ münaqişəsinin qanun çərçivəsində həllinin tərəfdarıdır.

**Məktubda bildirilib ki, 1993-cü ildən başlayaraq Moskva və bütün Rusiyanın patriarxının vasitəçiliyi ilə Azərbaycan və Ermənistanın dini liderlərinin bir sıra görüşləri keçirilib:** “Həmin görüşlərdə iştirakçılar dəfələrlə qeyd ediblər ki, Qarabağ münaqişəsi dini zəmində deyil və siyasi xarakter daşıyır. Millətlərarası düşmənçilik xristianlıq və islam dinlərində günah sayılır. Moskva patriarxlığı bu gün də həmin mövqedən çıxış edir, münaqişənin sülh yolu ilə ədalətli həllinə səy göstərir. Azərbaycan tərəfinin narahatlığı Pravoslav Parlamentlərarası Assambleyanın rəhbərliyinə çatdırılacaq”.

**Qeyd edək ki, Pravoslav Parlamentlərarası Assambleyanın 2016-cı il iyulun 4-8-də Yunanıstanda keçirilən XXIII illik konfransının yekun bəyannaməsində aprel ayında Dağlıq Qarabağ istiqamətində, Azərbaycan və işğalçı Ermənistan qoşunlarının təmas xəttində baş vermiş hadisələrə birtərəfli münasibət yer alıb və Azərbaycan tərəfi ittiham olunub. Sənəddə bildirilir ki, aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan ordusu genişmiqyaslı hərbi əməliyyatlara başlayıb:** “Çoxlu sayda ağır silahların tətbiqi, dinc əhalinin atəşə tutulması problemin hərbi yolla həllinə yönəlmiş səyləri açıq göstərir.ATƏT-in Minsk Qrupu həmsədrlərini və beynəlxalq təşkilatları yaranmış duruma müdaxilə etməyə, bütün mexanizmlərdən və vasitələrdən istifadə edərək bölgədə qeyri-sabitlik və gərginlik yaradan addımların qarşısını almağa çağırırıq”.

YENİ MÜSAVAT
N 189 (6510) 27 avqust 2016

# Manatla bağlı bədbin proqnozlar artır...

## Vüqar Bayramov: “Mərkəzi Bank manatı bir müddət saxlasa belə bu, dolların bahalaşmasının qarşısını ala bilməyəcək”

**Manatla bağlı bədbin proqnozlar mətbuatın gündəmindən düşmür. Bu cür məlumatların yayılması bazarda dollara tələbatı artırmaqla yanaşı, əhalinin də təşvişinə səbəb olur. Ötən gün bank sektorundakı mənbələrdən istiqlal.az-a valyuta bazarında kifayət qədər həyəcan doğuran bir məlumat daxil olub. Mənbənin iddiasına görə hökumət üzən məzənnədən imtina edib, yenidən kəskin devalvasiyaya hazırlaşır. Hətta devalvasiyanın tarixi də göstərilib - 3 sentyabr.**




**Mənbənin sözlərinə görə, dollar satışı demək olar ki, dayandırılıb, qara bazar canlanıb**: “Banklar devalvasiyaya hazırlıq məqsədi ilə rəsmi dollar satışını minimuma endirib xarici valyutanı qara bazara çıxarıb. Qara bazar bankların tam nəzarətindədir”. Məlumatda deyilir ki, hazırda 1 dollar 1.62 manatdır. 25 faizlik devalvasiya olacaqsa, dolların məzənnəsi 2,02 manat olacaq. Səbəblərdən biri də odur ki, ölkəyə idxal da artmaqdadır. Dövlət Gömrük Komitəsinin məlumatına görə, yanvar-iyulda ixrac illik 49,42%, idxal 14,2% azalıb. Mənfi saldo 1 milyard dollara yaxındır. Bu da kəskin devalvasiyanı qaçılmaz edir.

Qeyd edək ki, bankların dollar satışını məhdudlaşdırmasından sonra “qara bazar” da fəallaşıb və bu da manatın məzənnəsinə təzyiqləri artırır. Maliyyə Bazarlarına Nəzarət Palatası, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq “qara bazar”a qarşı son günlər birgə mübarizə apararaq qanunsuz olaraq xarici valyutaların satışı ilə məşğul olanları saxlayıblar. “Qara bazar”ın fəallaşması və bankların dollar satmaqdan imtina etməsi də devalvasiyanın anonslarından biri hesab edilir.

Manata başqa bir təhlükə isə ABŞ-dan gələ bilər. Belə ki, ABŞ-ın Federal Ehtiyat Sistemi *(FED)* faiz dərəcələrini artırmağa yaxınlaşıb. FED-in iki şöbəsinin rəhbəri ABŞ Mərkəzi Bankının növbəti iclasında faizlərin artırılması ilə bağlı qərar veriləcəyinə inandığını bildirib.

FED-in “Kanzas City” şöbəsinin rəhbəri Eşther Corc son 2 ayda məşğulluqda müşahidə olunan artımı əsas gətirərək ABŞ iqtisadiyyatında əmək haqlarının yüksələcəyini və bununla da istehlakın artacağını bildirib. Onun fikrincə, bu ilin ikinci yarısında ABŞ iqtisadiyyatında 3%-lik artım olacaq ki, bu da son nəticədə bu il üzrə 2%-lik artıma səbəb olacaq: “Fikrimcə, artıq faizlərin artırılmasının zamanı gəlib. Faiz dərəcələrinin mərhələli olaraq artırılmasının tərəfdarıyam. Amma bunun üçün məşğulluğun daha da artması və inflyasiyanın sabit olması lazımdır”. FED-in “Dallas” şöbəsinin rəhbəri Robert Kaplan da iqtisadiyyatın məşğulluq sahəsində müsbət tendensiyaların müşahidə olunduğunu vurğulayaraq tələbatın artmasının sayəsində bu ilin II yarısında ABŞ-da ÜDM-in artacağını bildirib. Əmək bazarında vəziyyətin yaxşılaşdığını deyən R. Kaplan yaxın gələcəkdə faizlərin artırılacağına işarə edib.



FED rəhbərlərinin bu açıqlamaları da manata təzyiqləri artıran bir amil hesab olunur. Əgər FED növbəti iclasda faiz dərəcələrini artırsa, bu manatın daha da ucuzlaşmasını qaçılmaz edəcək.

**İqtisadçı-ekspert Vüqar Bayramov** da “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, valyuta bazarında bütün şərtlər manatın dəyərdən düşməsini qaçılmaz edir: “İyun ayından başlayaraq, manatın dollara qarşı məzənnəsində azalmalar və xarici valyutanın möhkəmlənməsi müşahidə edilir. Son 3 ayda manat hər yüz dollara görə 22 manat dəyər itirib. Bu da ondan xəbər verir ki, manatın dəyər itirməsi prosesi davam edir. Dollara tələb hələ də yüksəkdir. Son hərraclarda dollara olan tələb təklifi ən azı 14 dəfə üstələyib. Son hərracda təklif 50 milyon dollar, tələb isə 700 milyon dollar idi. Bu da onu göstərir ki, tələblə təklif arasında böyük fərq var. Mərkəzi Bank da praktiki olaraq bazara intervensiya etmir. Son hərraclarda təklif Dövlət Neft Fondu tərəfindən həyata keçirilib. Praktiki olaraq DNF hərraclar vasitəsilə dollara olan tələbi ödəməyə çalışır. Lakin tələbin təklifdən çox olması onu göstərir ki, hərraclarda dollara olan tələb ödənilmir. Mərkəzi Bank manatı bazar dəyərinə yaxınlaşdırmağa çalışır. Manatın son aylarda müəyyən qədər dəyər itirməsinə baxmayaraq, hələ də real bazar dəyərini almayıb. Hazırda tənzimlənən üzən valyuta rejimidir. Mərkəzi Bank bazara intervensiya etməsə də, hərraclar vasitəsilə, Dövlət Neft Fondunun hərraclara çıxmasını təmin edərək bazara təsir edir. DNF dollar satıb manat alaraq dövlət büdcəsinə transfer edir, büdcə xərclərini qarşılayır. Nəticədə yenə də Mərkəzi Bank rəsmi məzənnə vasitəsilə bazara təsir edir. Konkret marja var və bu imkan vermir ki, banklarda məzənnə Mərkəzi Bankın məzənnəsindən kəskin fərqlənə bilsin”.



**Ekspert onu da qeyd etdi ki, Mərkəzi Bank bazardan çəkilərsə, üzən valyuta rejimi liberal rejimə keçərsə, manatın daha çox dəyər itirəcəyi şübhəsizdir:** “O baxımdan son ayların manitar siyasəti o nəticəyə gəlməyə imkan verir ki, Mərkəzi Bank mərhələli şəkildə manatın bazar dəyərinə yaxınlaşmasını təmin etməyə, həm də valyuta ehtiyatlarını qorumağa çalışır. Çünki AMB manatı bir müddət saxlasa belə bu dolların bahalaşmasının qarşısını ala bilməyəcək. Mövcud manitar siyasət davam edərsə, növbəti dövrlərdə də manat ucuzlaşmaqda davam edəcək. Lakin bu kəskin olaraq deyil, mərhələli şəkildə baş verəcək və ilin sonuna kimi davam edəcək. Mərkəzi Bank liberal üzən valyuta rejiminə keçməyə ehtiyatlanır, çünki bu halda manat daha çox dəyər itirəcək. Kəskin devalvasiya, yəni milli valyutanın sıçrayışla dəyər itirməsi Mərkəzi Bankın məzənnə siyasətindən asılı olacaq. Mərkəzi Bank liberal üzən valyuta rejiminə keçərsə, manat sıçrayışla dəyər itirə bilər. Ancaq mövcud siyasəti saxlasa, mərhələli şəkildə manat dəyər itirəcək. Hər iki halda dollar möhkəmlənəcək”.

**Hazırda “Qara bazar”ın aktivləşməsinə gəlincə, V.Bayramov bildirdi ki, dollar satışının məhdudlaşdırıldığı vaxtda bu gözlənilən idi:** “Sahibkar, vətəndaş banklardan dollar ala bilmirsə, məcburdur ki, qara bazardan alsın. Valyutadəyişmə məntəqələri bağlanan zaman da mən bildirmişdim ki, bu qara bazarı canlandıracaq. Bu baxımdan valyutadəyişmə məntəqələrinin bərpa edilməsinə ehtiyac var. Qara bazarın formalaşmasının əsas səbəbi vətəndaşların valyuta tələbinin ödənilməməsidir. Amma qara bazar varsa, deməli valyuta var, lakin leqal bazarda satılmır. Bu baxımdan valyutanın leqal bazarda satılmasına ehtiyac var. Mərkəzi Bankın və Maliyyə Bazarlarına Nəzarət Palatasının da funksiyası ondan ibarət olmalıdır ki, növbəti dövrdə "qara bazar"da satılan dollar leqal şəkildə vətəndaşlara təklif edilsin. Bu da məzənnəyə təsiri azaldır. Ölkədə valyutadəyişmə sahəsində böyük problem var, şənbə və bazar günlərində, bayram günlərində bu daha da çətinləşir. Yaxşı olar ki, Bakının mərkəzi rayonlarında müəyyən sayda valyutadəyişmə məntəqələrinin fəaliyyət göstərməsinə icazə verilsin. Bu baxımdan “qara bazar”ın leqallaşdırılması vacibdir".

❑ NƏRGİZ

# “Alfa Sığorta”nın lisenziyası ləğv edildi

**Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) Direktorlar Şurasının 26 avqust 2016-cı il tarixli qərarına əsasən “Alfa Sığorta” ASC-nin sığorta fəaliyyəti üçün verilmiş lisenziyası ləğv edilib.**

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası

Palatadan “APA-Economics”ə verilən məlumata görə, lisenziyanın ləğv olunmasına səbəb, son dövrlər “Alfa Sığorta”nın maliyyə vəziyyətinin kəskin pisləşməsi, aktiv və kapitalının itirilməsi, yetərli səviyyədə ehtiyat formalaşdırmaması və öhdəliklərini icra etməməsi olub.

“Artıq bir müddətdir ki, "Alfa Sığorta"-dakı mövcud problemlərlə əlaqədar olaraq xüsusi nəzarət rejimi tətbiq edilirdi. Buna səbəb sığortaçının təsisçisi olan “Texnikabank”ın müflisləşməsi və bununla əlaqədar olaraq “Alfa Sığorta” ASC-nin maliyyə durumunun kritik vəziyyətə düşməsidir. Həmçinin sığorta şirkətinin idarəetmə orqanlarının qeyri-prudent fəaliyyəti və qeyri-sağlam sığorta təcrübəsi “Alfa Sığorta”-nın maliyyə durumunun daha da pisləşməsi ilə nəticələnib", - deyə məlumatda vurğulanıb.

Qeyd edək ki, sığortaçının öhdəliklərini artırması və sistemə əlavə risklər ötürməsinin qarşısının alınması məqsədilə cari ilin aprel ayından şirkətin İcbari Sığorta Bürosunda üzvlüyü dayandırılıb və bütövlükdə, aktiv satışlarının qarşısı alınıb.

“Palata, aprel ayının sonundan "Texnikabank"ın ləğvedicisi təyin edilmiş Əmanətlərin Sığortalanması Fondu ilə birlikdə “Alfa Sığorta” ASC-nin sığorta portfelinin satışı vasitəsi ilə sağlamlaşdırılmasına cəhd etsə də, sığortaçının yetərli likvid aktivlərlə təmin olunmuş ehtiyatlarının mövcud olmaması səbəbindən bu mümkün olmadı. Sığortaçıya əlavə kapital inyeksiyası olmadan onun maliyyə durumunun qanunvericiliyin tələbləri səviyyəsində bərpasının mümkün olmadığını və müflis təsisçisininsə belə imkanlarının olmamasını nəzərə alaraq MBNP “Alfa Sığorta” ASC-nin lisenziyasını ləğv edib", - deyə məlumatda vurğulanıb.

**Direktorlar Şurasının qərarı ilə “Alfa Sığorta” ASC-nə təyin olunan müvəqqəti inzibatçı 26 avqust 2016-cı il tarixdən vəzifələrinin icrasına başlayıb.**

YENİ MÜSAVAT
N 189 (6510) 27 avqust 2016

**Azadlığa çıxmasına az müddət qalan sabiq səhiyyə naziri Əli İnsanov barəsində yeni cinayət işi başlaması ətrafında söz-söhbətlər səngimək bilmir. Məhbus həyatı ilə vidalaşacağı son 57 günü sayan sabiq nazirin qəflətən belə halla üzləşməsi ilə bağlı çoxsaylı müəmmalar var...**

# Əli İnsanovu yeni cinayət işi üzrə 10 il 6 ay cəza gözləyir

## Sabiq naziri ən çox müdafiə edən müxalifətin pərdəarxası niyyətləri; siyasi partiyalar onu qazanmaq üçün yarışırlar...

Əsas suallardan biri də 11 illik cəzadan sonra keçmiş nazirin indi neçə il cəza alacağı ilə bağlıdır. **Hüquqşünas Müzəffər Baxış** "Yeni Müsavat"a açıqlamasında İnsanovun üç maddə üzrə ən yuxarı həddə 10 il 6 ay cəza ala biləcəyini bildirdi: "Ona qarşı irəli sürülən maddələr *(234.1-ci maddə - satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama; 315.2-ci maddə hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və zor tətbiqetmə 317-2.1-ci - cəzaçəkmə müəssisələrində qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi və istifadəsi)* üzrə ən yuxarı həddə cəza verilsə, toplanma yolu ilə İnsanov 10 il 6 ay müddətində azadlıqdan məhrum edilə bilər. Bundan artıq cəza ola bilməz. Hesab edirəm ki, İnsanov o cinayətlərin heç birini törətməyib. Ona qarşı irəli sürülən ittihamlar əsassızdır. Bunun mahiyyəti ondan ibarətdir ki, Əli İnsanovdan qisas alırlar. Avropa Məhkəməsinin qərarı var ki, əgər cəzaçəkmə müəssisələrinə narkotik maddələr keçirilirsə, burada rəhbərlik məsuliyyət daşıyır. Çünki ora qapalı yer sayılır".

Bir maraqlı məqam da müxalifət partiyalarının Əli İnsanovu ciddi-cəhdlə müdafiə etməsidir. Nazir olduğu dönəmlərdə İnsanov ən sərt şəkildə tənqid, təhqir etdiyi müxalifət bu gün onun müdafiəsindədir... Doğrudur, məhkəməsi zamanı İnsanov bu fikirlərinə görə müxalifətdən üzr istəyib. Amma müxalifətin onu müdafiə etməsi ilə bağlı fikirlər birmənalı deyil. Çoxları düşünür ki, demokratik düşərgə daxilində İnsanovun gücünə, maddi imkanlarına sahib olmaq üçün qızğın mübarizə gedir. Buna görə siyasi partiyalar ona yaxın olmaq üçün dəridən-qabıqdan çıxırlar. Müxalifətin onu müdafiə etməsi ilə bağlı digər bir versiya isə İnsanovun məhbus olması və hakimiyyətə qarşı barışmaz sərt münasibəti ilə bağlıdır...

**Ümid Partiyasının sədri İqbal Ağazadə** müxalifətin İnsanovla bağlı qətiyyətli mövqeyinə bu cür aydınlıq gətirdi: "Burada prinsiplərdən söhbət gedir, şəxslərdən yox. Şəxslərin məsələsi şəxsən mənim üçün sonuncu bir məsələdir. Amma prinsiplər məsələsi var ki, burada haqqı tapdalanan, yaxud qanunsuzluqla üzləşən kim olursa-olsun, mövqeyimizdən asılı olmayaraq, onu müdafiə etməliyik. Biz elə şəxsləri müdafiə etmişik ki, ömrü boyu müxalifətə düşmən kəsiliblər. Bu məsələni şəxsiləşdirmək lazım deyil".



**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa** fərqli düşünür: "Burada daha çox onun elektorat bazasından müəyyən dərəcədə istifadə etmək, Qərbi azərbaycanlıların rəğbətini qazanmaq üçün belə taktika seçilir. Mahiyyətcə hakimiyyətdə təmsil olduğu dönəmlərdə müxalifətə qarşı sərt, barışmaz məmurlardan biri İnsanov idi. Onun fikirləri, addımları müəyyən vaxtlarda hakimiyyətlə müxalifət arasında normal münasibətlərin qurulmasına mane olurdu. İndiki şəraitdə bu dəstək onun elektoratını qazanmaq, yaxud dəstəyini almaq üçün nəzərdə tutula bilər".

Yeni **AXCP-nin sədri Razi Nurullayev** bəzi müxalif qurumların İnsanovu müdafiə etmələrinin arxasında müəyyən niyyətlərin dayandığını söylədi: "Öncə İnsanova azadlıq arzulayıram. Düşünürəm ki, o, həm yaşına, həm əməyinə, həm də xidmətlərinə görə azadlığına qovuşmalıdır. İnsanov hakimiyyətdə təmsil olunan vaxt müxalifətə qarşı ən sərt mövqedə dayanan məmurlardan biri olub. Bu gün onun müxalifət tərəfindən daha çox müdafiə edilməsinin başlıca səbəbi müxalifətdən də qabağa gedərək, hakimiyyət barəsində sərt fikirlər səsləndirməsidir. Onunla müxalifətin mövqeyi üst-üstə düşdüyünə görə biz onu müdafiə edirik. Özümlə bağlı deyə bilərəm ki, onu müdafiə etməkdə səmimiyəm. Heç bir gözləntim, təmənnam yoxdur. Vaxtı ilə İnsanov və digər məmurlara qarşı sərt təpki göstərən müxalifət hakimiyyətdə olub, sonradan hakimiyyətdən gedəndən sonra müxalifətə müraciət edən şəxsləri qəbul etməyiblər. Əli Kərimli və Müsavatı buraya aid etmək olar. İndi həmin şəxslər İnsanovla bağlı fərqli mövqe sərgiləyirlər. Bunun üçün onların səmimiyyətinə tam inanmıram. Burada kifayət qədər siyasi maraqlar var. Əli İnsanov azadlığına qovuşarsa, özü bir siyasi partiya yaradarsa, müxalifətdə liderlik iddiasına düşərsə, o zaman həmin insanların düşməninə çevriləcək, onu söyəcəklər, xəyanətdə suçlayacaqlar. Məhz bunlara görə İnsanova göstərilən münasibətin arxasında səmimiyyətin olduğuna inanmıram. Azərbaycan müxalifətini əlimin içi kimi tanıyıram. Onların iddialarını, maraqlarını, potensiallarını bilərək, deyirəm ki, ölərlər, amma İnsanovun liderliyini qəbul etməzlər. Əksinə, İnsanovun onlara kömək etməsini arzulayarlar. O, bunu istəməsə, satqın olacaq, hakimiyyətə satılmış elan olunacaq. Çünki bu, onların xislətidir, dəfələrlə sınaqdan keçirilmiş metodlardı sayılır".

❑ **Cavanşir ABBASLI**

# Lənkəranskinin qətlini sifariş etməkdə suçlanan "Şakro"nun yaxın adamı həbs olundu

## Əfsanəvi "qanuni oğru" qətlindən əvvəl gürcü avtoritetlərlə görüşübmüş

**İstanbulda qətlə yetirilən Rövşən Lənkəranskinin (Canıyev) ölümü ilə bağlı bəzi detallar üzə çıxıb. Moskvada Rövşən Lənkəranskinin qətlinə fərman verdiyi ehtimal edilən "Şakro Molodoy"un baş cangüdəni həbs olunub. Yezidi kürd olan "Şakro Molodoy" kimi tanınan kriminal avtoritet Zaxari Kalaşovun təhlükəsizlik xidmətinin rəhbəri Batır Bekmuradovun barəsində həbs qətimkan tədbiri seçilib. İttihama görə B.Bekmuradov "Şakro Molodoy"un reketlik yolu ilə pul alması üçün sahibkarları seçib müəyyənləşdirib. Daha sonra onları təhdid edərək aylıq haqq alıb. O, ittihamları rədd edir. Batır Bekmuradov keçmiş desantçıdır, Moskvanın Ozersk rayonu rəhbərinin keçmiş köməkçisidir.**

Onu şefi "Şakro Molodoy" iyul ayında reketlik və quldurluq ittihamı ilə həbs olunub. O, 2014-cü ilin martında həbsdən azad ediləndən sonra Rusiya kriminal aləminin "xaç atası" sayılan Aslan Usoyanın ("Ded Xasan") qəbri üstünə yollanmışdı. Orada "Ded Xasan"ın qətlini sifariş verən şəxsi tapıb öldürəcəyinə and içmişdi. Milliyyətcə yezidi kürd olan "Ded Xasan" 2013-cü il yanvarın 16-da Moskvanın Povarski küçəsində yerləşən "Köhnə fayton" restoranından çıxarkən killer tərəfindən vurulmuşdu. "Ded Xasan"ın öldürülməsindən sonra xüsusilə onun yaxın qohumları olan yezidi kürdlər klanın əvvəlki nüfuzunu qorumağa çalışsalar da, buna nail ola bilmədilər. Bunun əsas səbəbi isə "Ded Xasan"ın öldürülməsindən sonra cinayətkar aləmin kralı postuna "1 nömrəli namizəd" hesab olunan "Şakro Molodoy" ləqəbli Zaxari Kalaşovun həbsdə olması idi. Hələ o vaxt Rusiya mətbuatı "Ded Xasan"ın varisi kimi İspaniyada həbsdə olan Z.Kalaşovun adını çəkirdi. "Ded Xasan"ın taxtına "Molodoy"un oturacağı qeyd edilirdi. "Şakro Molodoy"un həbsdən azad edilməzdən öncə mətbuatda kriminal aləmdə yeni qanlı hesablaşmaların başlayacağı xəbərləri vardı. Hələ ö dövrdə "Şakro Molodoy"un "Ded Xasan"ın qətlinə görə Rövşən Lənkəranski ilə haqq-hesab çəkəcəyi xəbərləri vardı. Bu səbəbdən də "Şakro Molodoy"un Rövşən Lənkəranskinin qətlindən bir neçə gün əvvəl "içəri"yə girməsi "yeraltı dünya"da birmənalı qarşılanmayıb. Rövşən Lənkəranski xüsusi çəkiyə malik "qanuni oğru" idi və onun öldürülməsinə görə cavabın özünü çox da gözlətməyəcəyi ona atəş açılan andan bəllidir. Belə bir halda "Şakro Molodoy"un "içəri" girməsi "öz evi" hesab olunan məhbəsdə öldürülməsinin qarşısını birmənalı şəkildə alacaq. Həbsdə olduğu illər isə həyatda olacağına təminatdır. Bu baxımdan "Şakro Molodoy"un "içəri"də sağ-salamat qalacağı ehtimalı böyükdür...



**"Rövşən Lənkəranski"nin daha bir qurbanı - "Miri Şamaxinski"**

Bu arada mətbuatda 2010-cu ildə Moskvada yaşadığı mənzilin qarşısında öldürülən kriminal avtoritet "Miri Şamaxinski" haqda yazılar dərc olunub. Virtualaz.org xəbər verir ki, "Miri Şamaxinski"ni killerlər xüsusi amansızlıqla qətlə yetiriblər. Rusiya hüquq-mühafizə orqanları qətlin Lənkəranskinin qruplaşması tərəfindən təşkil edildiyini müəyyən ediblər...

**Bu arada, Avqustun 18-də İstanbulda öldürülməzdən əvvəl Rövşən Lənkəranski yaşadığı oteldə Tahir Can və özünün yaxın adamları sayılan azərbaycanlı Hacıbaba Talıbxanlı, A.N. və Zaur İsayevdən əvvəl gürcü avtoritetlərlə də görüşdüyü haqda xəbərlər var. Həmin avtoritetlər "Sripa" ləqəbli Temuri Nemsisveridze, "Matveiç" ləqəbli Roin Uqlava və Dato Çuradze olublar.** Rövşən Lənkəranskinin bu şəxslərlə Moskva bazarlarındakı durumu müzakirə etdiyi ehtimal edilir. Gürcü avtoritetlərin Türkiyə hüquq mühafizə orqanlar tərəfindən axtarıldığı da gələn məlumatlar sırasındadır. Qeyd edək ki, əfsanəvi "qanuni oğru"nun güllələnən edilməsi Moskvanın Domodedovo rayonundakı eyni adlı meyvə-tərəvəz bazarına nəzarətdən doğan mübahisəyə görədir. Hətta qətlin mümkün sifarişçisinin adı da çəkilir - Timur. Bu şəxsin Rusiya Federasiyası Dumasının deputatı Aleksandr Şişkinin şəxsi mühafizə xidmətinin rəisi olduğu deyilir. Bildirilir ki, bazarda mübahisə illərdir ki, davam edir. Həmin bazardakı mübahisələr 2014-cü ilin yanvarında pik nöqtəsinə çatıb...

Ötən saylarımızdan birində Rövşən Lənkəranskinin öldürülməsi planının xeyli əvvəldən olduğunu yazmışdıq. Mənbəmiz demişdi ki, planın tezliklə icra edilməsi nəzərdə tutulurmuş. Qaynağımız onun Türkiyədə özünü rahat hiss edib sayıqlığını itirməsi haqda söylənilənlərin doğru olmadığını bildirib. Onun sözlərinə görə, Rövşən Lənkəranski qətlindən əvvəl "Mersedes - S class" markalı zirehli maşın sifariş edib. Həmin maşın ona avqustun 19-da çatdırılmalı imiş. Avqustun 18-də öldürülməsinin bu məlumatın onun opponentlərinə çatdırılmasını düşünmək üçün əsaslar yaradır. Belə məlumat var ki, Rövşən Lənkəranskinin zirehli maşın alacağı haqda məlumatı əks cinaha - onun düşmənlərinə Tahir adlı sürücüsü ötürüb. Qətl buna görə ertələnib. Lənkəranskini zirehli maşında öldürmək ehtimalının azlığı onun düşmənlərini təcili hərəkətə keçirib və nəticədə əfsanəvi "qanuni oğru" öldürülüb.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 189 (6510) 27 avqust 2016

# Azərbaycanda 24 min dustağın yeməyini kimlər yeyir-araşdırma

## Vaxtilə dünyanın bütün naz-nemətlərini dadan bankir indi Bakı İstintaq Təcridxanasında "dustaqların bir günlük yeməyinə 18 manat 50 qəpik pul ayrılır, amma heç 50 qəpiklik yemək vermirlər" deməsi nə dərəcədə həqiqətdi?

**"Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin keçmiş sədri, hazırda həbsdə olan Cahangir Hacıyev məhkəmədə ifadə verərkən saxlama şəraiti haqda ilginc məlumatlar verib. Deyib ki, dövlət bir dustağın saxlanması üçün gündəlik 18 manat 50 qəpik xərcləyir. Amma dustaqlara gündəlik 50 qəpiklik qida verilmir.**

**Cahangir Hacıyevin məhkəmədəki çıxışından sitat:**

"Dekabrın 19-dan qaldığım kameradan məni başqa korpusa köçürüblər. Hansı ki, həmin korpusda məhkum olunmuş şəxslər saxlanılır. Əvvəlki korpusda gündə iki dəfə su verilirdi. Burada cəmi bir gündə 4 dəqiqə su verilir. Soyuducusu isə yoxdur. Təsəvvür edin ki, həftə bir dəfə yemək qəbul edirlər. Əgər soyuducu yoxdursa, bu o deməkdir ki, bir gün yeyib 6 gün ac qalmalısan. 45 dərəcə istidə belə şəraitdə saxlanmaq nə deməkdir? Allah heç kimə qismət etməsin. Ancaq yaddan çıxarmayın ki, hamının başına gələ bilər. Dustaqların bir günlük yeməyinə 18 manat 50 qəpik pul ayrılır. Amma heç 50 qəpiklik yemək vermirlər. Xahiş edirəm ki, bu məsələlərə qanun şəklində baxasınız. Mənə işgəncə vermək nəyə lazımdır? Bunu da bilsinlər ki, buna göstəriş verənlər heç nəyə nail olmayacaqlar".

Penitensiar Xidmətin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polkovnik Mehman Sadıqov modern.az-a açıqlama verərək C.Hacıyevin məhkəmədə dediklərini yalana çıxarmağa çalışıb.

**Sitat:** "Son illər ərzində Azərbaycanda beynəlxalq standartlara uyğun Penitensiar Xidmət, cəzaçəkmə müəssisələri, istintaq təcridxanaları inşa edilib. Bakı İstintaq Təcridxanası da məhz onlardan biridir".

M.Sadıqov deyir ki, məhkumların saxlanma şəraitinin nə dərəcədə yüksək olmasını onlar yox, beynəlxalq ekspertlər təsdiqləyir. Ona görə də hesab edir ki, bu ittihamlar həqiqəti əks etdirmir: "Təcridxanada yüzlərlə məhkum saxlanılır. Cəmi 4 dəqiqə ərzində o qədər insanın suya olan tələbatı ödənilə bilərmi? Bu səbəbdən tamamilə həqiqətdən uzaq iddiadır".

Xidmət rəhbəri deyib ki, məhkumların saxlanmasına və qida rasionun təmin olunmasına görə müəyyən normalarla təsdiq olunmuş kifayət qədər maliyyə vəsaiti ayrılır. Ayrılan vəsait də müəyyən olunmuş istiqamət üzrə sərf edilir.

Sabiq bankirin məhkəmədə dustaqların qidalanması ilə bağlı açıqladığı rəqəm və dediyi sözlər zaman-zaman ictimai müzakirələrə çıxarılıb. Dustaqlara qida normalarından qat-qat az və son dərəcə keyfiyyətsiz qida verilməsi ictimaiyyətə bəllidir. Bu gün Azərbaycanda 24 min nəfər dustaq var. Azərbaycan tarixində türmələrdə saxlanılan şəxslərin sayı heç vaxt bu qədər olmayıb və bu rəqəm hər il daha da artır.

Bu ilin aprelində Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsində "Yetkinlik yaşına çatmayanların ədalət mühakiməsinə dair qanunvericiliyin təkmilləşdirilməsi" adlı dəyirmi masa keçirilib. Orada komitə üzvü, deputat Çingiz Qənizadə də dustaqların sayının çoxaldığını təsdiqləyən fikirlər söyləyib: "Azərbaycanda bütün



**Sual: Cəzaçəkmə müəssisələrində saxlanılan məhkumların gündəlik ərzaq normalarına nə daxil olmalıdır?**

**Cavab:** Məhkumların maddi – məişət və yemək normalarına əsasən, cəzaçəkmə müəssisələrində saxlanılan məhkumların gündəlik ərzaq normalarına aşağıdakılar daxil olmalıdır:

| Ərzağın adı | Ərzağın miqarı bir adam üçün sutka ərzində (qramla) |
|---|---|
| 1-ci növ buğda unundan çörək | 700 |
| 2-ci növ buğda unu | 15 |
| Müxtəlif yarmalar | 125 (o cümlədən 10 qr. düyü) |
| Makaron məmulatı | 25 |
| Ət | 80 |
| Balıq | 100 |
| Piy, marqarin | 20 |
| Bitki yağı | 20 |
| Şəkər tozu | 30 |
| Quru çay | 1 |
| Duz | 20 |
| Kartof | 550 |
| Tərəvəz | 250 |
| Dəfnə yarpağı | 0,1 |
| Tomat pastası | 5 |
| Kərə yağı | 10 |
| Yumurta | 2 ədəd (həftədə) |

5



**Sual: Cəzaçəkmə müəssisələrində məhkumlara hansı ərzaq məhsullarını özlərində saxlamağa icazə verilir?**

**Cavab:** Cəzaçəkmə müəssisələrinin Daxili intizam qaydalarına əsasən, məhkumlara aşağıdakı ərzaq məhsullarını özlərində saxlamağa icazə verilir:

1) çörək və digər un məmulatları;
2) duzlanmış balıq (bişirilməsi tələb olunmayan);
3) yağ, piy;
4) pendir;

7

5) quru qənnadı məmulatları;
6) quru çay (həbsxanada 100 qrama qədər);
7) meyvə, tərəvəz, meyvə qurusu;
8) süd və süd məmulatları;
9) konservlər;
10) tütün məmulatları, kibrit, alışqan.



normalarına nə daxil olmalıdır?

**Cavab:** Məhkumların maddi – məişət və yemək normalarına əsasən, həbsxanalarda saxlanılan məhkumların gündəlik ərzaq normalarına aşağıdakılar daxil olmalıdır:

| Ərzağın adı | Ərzağın miqarı bir adam üçün sutka ərzində (qramla) |
|---|---|
| 1-ci növ buğda unundan çörək | 700 |
| 2-ci növ buğda unu | 10 |
| Müxtəlif yarmalar | 125 (o cümlədən 10 qr. düyü) |
| Makaron məmulatı | 20 |
| Ət | 80 |
| Balıq | 100 |
| Piy, marqarin | 15 |
| Bitki yağı | 20 |
| Şəkər tozu | 30 |

6

| | |
|---|---|
| Quru çay | 1 |
| Duz | 20 |
| Kartof | 500 |
| Tərəvəz | 300 |



**Sual: Tərbiyə müəssisələrində saxlanılan məhkumların gündəlik ərzaq normalarına nə daxil olmalıdır?**

**Cavab:** Məhkumların maddi – məişət və yemək normalarına əsasən, tərbiyə müəssisələrində saxlanılan məhkumların gündəlik ərzaq normalarına aşağıdakılar daxil olmalıdır:

| Ərzağın adı | Ərzağın miqarı bir adam üçün sutka ərzində (qramla) |
|---|---|
| 1-ci növ buğda unundan çörək | 700 |
| 2-ci növ buğda unu | 10 |
| Müxtəlif yarmalar | 80 (o cümlədən 10 qr. düyü) |
| Makaron məmulatı | 40 |
| Ət | 80 |
| Balıq | 100 |
| Kərə yağı | 30 |
| Piy, marqarin | 10 |
| Bitki yağı | 15 |
| Süd | 200 |
| Şəkər tozu | 45 |
| Quru çay | 1 |
| Duz | 20 |
| Kartof | 450 |
| Tərəvəz | 300 |
| Meyvə qurusu | 30 |
| Dəfnə yarpağı | 0,1 |
| Tomat pastası | 3 |
| Meyvə | 200 |
| Şirə | 100 |
| Sor | 50 |

cəzaçəkmə və istintaq təcridxanalarında ümumi məhkumların sayı 24 minə qədərdir və bu, Azərbaycanda indiyə qədər ən yüksək rəqəmdir".

Deputat həmin tədbirdə "Hər bir məhkumun bir günlük xərci 10 manat civarındadır. Bu da il ərzində 80 milyon manatdan çox edir" söyləyib. Qeyd edib ki, Cinayət Məcəlləsindəki sanksiyalarla bağlı islahatlara ehtiyac var. Bunun da nəticəsində məhkumların sayı xeyli aşağı düşəcək.

Deputatla sabiq bankirin açıqladığı rəqəmlər fərqlidir. Çingiz Qənizadə 1 dustağın 1 gün ərzində qidalanması üçün dövlətin 10 manat, Cahangir Hacıyev isə 18 manat 50 qəpik ayırdığını açıqlayıblar.

Deputatın açıqladığı 10 manat rəqəmini ölkədəki dustaqların sayını vursaq, dövlət büdcəsindən hər gün bu məqsəd üçün 240 min manat ayrıldığını dəqiqləşdirə bilərik. Bu halda dövlət dustaqlara ayda 720 min manat, ildə 87 milyon 600 min manat təkcə qidalanmaları üçün xərcləyir. Bundan başqa dövlət dustaqların yay, payız, qış və yaz geyim dəstləri, papaq və ayaqqabı, kommunal xərclərini qarşılamaq üçün də vəsait ayırır.

Mümkündür ki, C.Hacıyev bu xərcləri nəzərə almaqla 18 manat 50 qəpik rəqəmini dilə gətirib. Əgər onun açıqladığı rəqəmi əsas götürüb hesablama aparsaq büdcədən ölkədə olan dustaqların sayına görə ayrılan günlük xərclər 444 min manat, aylıq 13 milyon 320 min manat və nəhayət, illik 162 milyon 60 min manat olar.

*Bu qədər pul xərcləndiyi halda cəzaçəkmə yerlərində, istintaq təcridxanalarında vəziyyət necədir?*

Bir qədər əvvəl həbsdən azad olunmuş hüquq müdafiəçilərindən biri qəzetimizə açıqlamasında Bakı İstintaq Təcridxanasındakı qida rasionu haqda bunları deyib: "Yeməklərin keyfiyyətindən söhbət gedə bilməz. Çox bərbaddır. Çox vaxt supların içində xırda qurd olur. Nazirlər Kabinetinin müəyyən etdiyi "Məhkumların gündəlik ərzaq normaları"nda göstərilən qidaların heç 5 faizi verilmir. Dustaqlar öz hesablarına yaşayırlar. Düzdür, xüsusi nəzarətdə olanlara bunu da imkan vermirlər. Qida məhsullarını dustaqların yaxınları gətirirlər. Dustaqlar pulla aldıqları sobalarda özləri bişirib, özləri də yeyirlər. Pulu olanlar da lazım olan məhsulları Bakı İstintaq Təcridxanasındakı mağazadan alırlar. Təsərrüfat hissəsinin işçiləri hər gün səhər gəlib kameralardan bir-bir kimə nə lazım olduğunu soruşur. Kimin nəyə ehtiyacı var, pulunu verib aldırır. İldə iki dəfə xüsusi günlərdə dustaqlara aş adı ilə düyü verilir. Yanında da bir duzlu xiyar olur.

İlin 363 günü dustağa içində insanı diksindirən ət olan noxud supu verirlər. Onu da heç kim yemir. Çünki noxudlar qurdlu olur, suyun içinə atanda üzə çıxır. Axşam da həmin noxudları yığıb əzib şam yeməyi kimi verirlər.

Çörək haqda danışmağa belə dəyməz. Sanki qəsdən o vəziyyətdə çörək verirlər ki, kimsə yeməsin".




**"Çox vaxt supların içində xırda qurd olur, çörək haqda danışmağa belə dəyməz..."**

*Bəs dustaqların gündəlik ərzaq normalarına nə daxil olmalıdır?*

Nazirlər Kabinetinin 2001-ci il 25 sentyabr tarixli 154 nömrəli qərarı ilə təsdiqlənmiş 3 nömrəli əlavədə sutka ərzində 1 dustaq üçün ərzağın miqdarı belə müəyyən edilib: 1-ci növ buğda unundan çörək 700 qram, 2-ci növ buğda unu 15 qram, müxtəlif yarmalar 125 qram, makaron məmulatı 25 qram, ət 80 qram, balıq 100 qram, piy- marqarin 20 qram, bitki yağı 20 qram, şəkər tozu 30 qram, quru çay 1 qram, duz 20 qram, kartof 550 qram, tərəvəz 250 qram, dəfnə yarpağı 0.1 qram, tomat pastası 5 qram, kərə yağı 10 qram və yumurta həftə ərzində 2 ədəd verilməlidir.

Ümumilikdə gün ərzində dustağa verilməli olan qidanın çəkisi 2 kiloqram 51 qram olmalıdır.

Təsərrüfat işlərində çalışan dustaqlara bir qədər gücləndirilmiş qida verilməsi də nəzərdə tutulur və bunun üçün də dövlətin büdcəsindən pullar ayrılır.

Dustaqların normal qidalanması ilə yanaşı onların digər hüquqlarının pozulması da adi haldır.

Adının çəkilməsini istəməyən vəkillərdən biri deyir ki, hazırda Bakı İstintaq Təcridxanasında durum ən son həddə qədər ağırlaşdırılıb: "Yeni rəhbərlik müvəkkillərimizlə görüşü məhdudlaşdırıb. Elə belə də qibtə edilməli olmayan qidalar dustağın yeməsi üçün tam yararsızlaşdırılıb. İtə atsan yeməz. Sovqatları içəri buraxmırlar. Telefon danışıqlarına məhdudiyyət qoyulub, dustaqların gəzintiyə çıxması da məhdudlaşdırılıb. Bir sözlə Bakı İstintaq Təcridxanasında Qobustan qapalı həbsxanasındakı rejim tətbiq edilməyə başlayıb".

Qeyd edək ki, Cəzaların İcrası Məcəlləsinin 91-ci maddəsi - Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin maddi məişət təminatını tənzimləyir.

**Həmin maddəyə görə**

*- Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər cəzaçəkmə müəssisələrində sanitariya və gigiyena qaydalarına uyğun zəruri maddi-məişət şəraiti ilə təmin olunurlar;*

*- Cəzaçəkmə müəssisələrində, tərbiyə müəssisələrində və həbsxanalarda hər məhkum üçün yaşayış sahəsinin norması dörd kvadratmetrdən, müalicə müəssisələrində isə beş kvadratmetrdən az ola bilməz;*

*- Məhkumlara fərdi yataq yeri və yataq ləvazimatı verilir. Onlar cinsləri, mövsüm və iqlim şəraiti nəzərə alınmaqla dövlət hesabına geyim, alt paltarı və ayaqqabı ilə təmin edilirlər;*

*- Məhkumlar gün ərzində orqanizmin normal fəaliyyətini təmin edən üç dəfə yeməklə dövlət hesabına təmin olunurlar.*

*Reallıq isə başqadır və bunu Penitensiar Xidmət rəsmiləri heç bir halda etiraf etmək istəmirlər.*

**❑ E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 189 (6510) 27 avqust 2016

# "Araşdırmaq lazımdır ki, qadın nəyə görə zorakılığa əl atır"

## Mehriban Zeynalova: "Zorakılığın cinsi yoxdur"

**"Ailə zorakılığı" dedikdə ağıla ilk olaraq qadınlar gəlir. Çünki cəmiyyətimizdə zorakılığa daha çox qadınlar məruz qalır. Məhz buna görədir ki, ölkəmizdə qadınları müdafiə edən qurumların sayı daha çoxdur. Ancaq hərdən kişilər də zorakılığa məruz qalır. Məsələn, bu günlərdə Şəmkir rayonunun Seyfəli kəndində qadın ərini döyərək xəstəxanalıq edib. Həyat yoldaşı tərəfindən döyülən kənd sakini - 1974-cü il təvəllüdlü Arzuman Qarayev kəllə beyin travması və sifətin əzilmiş yarası xəsarətləri ilə Şəmkir xəstəxanasına yerləşdirilib...**

Kişilərin zorakılığa məruz qalması bizdə belə deyək ki, "sensasiya" sayılır. Avropa və Qərb ölkələrində isə bu, "adi hal" hesab olunur. Buna görə də həmin ölkələrdə kişilər üçün də sığınacaq evləri var. Türkiyədə də xanımının şiddətindən bezən kişilər üçün kişi sığınma evləri mövcuddur. Bu evlərin ən məşhuru Konyada yerləşir. Bura müraciət edənlərin böyük əksəriyyəti həyat yoldaşı və uşaqları tərəfindən zorakılığa məruz qalmış kişilərdir. Bir qeyri-hökumət təşkilatı tərəfindən açılan ev "zərərçəkənin cinsi olmaz" şüarını deviz seçib. Sığınacağa eyni vaxtda 40-50 kişi yerləşə bilir. İldə isə ən azı 400-500 nəfər yardım məqsədilə bura müraciət edir, bəziləri oranın uzunmüddətli qonağına çevrilirlər. Niderlandda, Amerikada da kişi sığınacaq evləri çoxluq təşkil edir. Serbiyada da "Kişilərin təhlükəsizliyi" adlı ictimai təşkilat var ki, bura arvadları tərəfindən döyülən və zorakılığa məruz qalan kişilər sığınıb.



*Maraqlıdır, Azərbaycanda qadınlarla yanaşı, kişiləri də müdafiə və himayə edən qurumlar varmı?*

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin rəhbəri Mehriban Zeynalova** zorakılığın qadın və kişi cinsinə bölünmədiyini dedi: "Zorakılıq qadın və kişi cinsinə bölünmür. Əgər şəxs zorakılığa məruz qalıbsa, həm konstitusiya, həm də məişət zorakılığı haqqındakı qanuna görə onlar eyni formada müdafiə olunmaq hüququna malikdir. Burada qadına ona görə üstünlük verilir ki, ən çox zorakılığa qadınlar məruz qalır. Amma ayrıseçkilik düzgün deyil. Müəyyən ölkələrdə adət-ənənələr bunu xüsusi qabartmağa şərait yaradır. Ümumi götürsək bütün ölkələrdə qadın zorakılığı var. Amma bu forma baxımından müxtəlifdir. Məsələn, Rusiyada kişilərin zorakılığa qalması faktı daha ənənəvi hesab edilə bilər. Qadının kişiyə qışqırması, fiziki zorakılıq yetirməsi və sairə hallar bu ölkədə ənənəvi hesab olunur. Amma buna baxmayaraq Rusiyanın özündə də qadına qarşı zorakılıq məsələsi var. Çünki kişi istənilən formada iqtisadi, fiziki və digər formalarda zorakılıq törədə bilər. Hüquq müdafiə təşkilatına hansısa bir kişi də müraciət etsə, yenə müdafiə olunacaq, zorakılıq faktı onun müdafiəsi üçün əsas məsələ kimi diqqət mərkəzində dayanacaq. Əsas odur ki, şəxs müraciət etsin və müdafiə olunsun. Heç kimə əsas verilmir ki, biri digərinə hökmranlıq və ya zorakılıq tətbiq etsin. Bunu edən hər kəs cinsindən asılı olmayaraq kişi cəzalandırılmalıdır. Sadəcə, bizdə qadınların zorakılığa məruz qalması ənənəvidir. Sanki qadın evin qulu, köləsidir və hər şeyə dözməlidir. Kişinin zorakılığa məruz qalması isə xüsusi diqqət çəkir. Bəlkə indi xanımlara qarşı müəyyən kampaniya başlayacaq ki, qadınlar belədir, hakimiyyəti ələ almaq istəyir, zorakılıq tətbiq etməyə başlayıblar və sairə. Amma həmin məsələnin özünün də araşdırmaya böyük ehtiyac var. Biz Şərq ənənəsinə malik bir ölkəyik və burada qadının kişi üzərində deyil, daha çox kişinin qadın üzərində hakimiyyəti mövcuddur".

**M.Zeynalova bildirdi ki, qadının nəyə görə zorakılığa əl atdığı araşdırılmalı və o cəzalanmalıdır:** "Mövzu ətrafında düşünmək lazımdır ki, nəyə görə qadın zorakılığa əl atır. Bu suallara cavab vermirik və baş vermiş hadisəni, gördüyümüzü təhlil edirik. Nəticə zorakılıqdır. Amma hansı amillər gətirib bu vəziyyətə çıxarıb, bunları araşdırmırıq. Hətta ölüm faktları da qeydə alınır. Məsələn, deyirlər ki, həbsxanada qadınlar var ki, ərlərini öldürüblər. Öldürülənə qədər hansı hadisələr baş verib, kişi hansı hərəkətləri edib, qadının psixoloji vəziyyəti necə olub, bütün bunlar sual doğuran məsələlərdir. Mən cinayət törədən qadına bəraət vermirəm. Hesab edirəm ki, bu yolverilməzdir. Nə kişiyə, nə də qadına qarşı zorakılıq olmamalıdır. Zorakılığa zorakılıqla cavab vermək olmaz. Səbəblər öyrənildikdən sonra zorakılıq edən o qadın cəzalanmalıdır. Biz ədalətli olmağa çalışmalıyıq. Mən istəmirəm deyilsin ki, qadın yaxşı edib. Bu az baş verən hadisə, yəni qadının ərini döyüb xəstəxanalıq etməsinin səbəbi öyrənilməlidir. Axı biz xaraktercə buna malik deyilik".

❑ **Günel MANAFLI**

# 40 minlik rus balerinası azərbaycanlı milyonerin ailəsini necə dağıdıb - şok faktlar

## "İntim qalmaqalı"nın şok pərdəarxası, ilan hekayəsinə bənzər gəlişmələr: "Anastasiya daha sonra onunla əlaqədə olub, sonra isə şantaj edib, pul istəyib... ardınca xanımına zəng edib..."

**Xəbər verdiyimiz kimi, Azərbaycandan olan zəngin biznesmen məşhur rusiyalı balerina Anastasiya Voloçkovaya intim görüşə görə 40 min dollar ödəyib. Xəbərdə iddia olunur ki, balerina pulu alıb və aradan çıxıb. Rusiya mənbələrinin verdiyi məlumata görə, Azərbaycandan olan milyonerlə balerinanın görüşünü Moskvadakı elit "tusovka"lar üzrə agentliklərdən birində işləyən Dmitri Tulyaninov təşkil edib. Həmin agentlik "Ulduzla bir axşam" layihəsi çərçivəsində imkanlı şəxslərlə şou-biznes ulduzlarının şam yeməyini təşkil edir.**





Azərbaycandan olan biznesmen isə agentliyə Anastasiya Voloçkova ilə şam yeməyi sifariş verib. Balerina bu xidmətə görə biznesmendən 25 min dollar alıb.

Onlar Moskvadakı elit otellərdən birinin restoranında görüşüblər. Görüş zamanı biznesmen Anastasiya Voloçkovaya "söhbəti intim şəraitdə davam etdirməyi" təklif edib. Balerina həvəslə bu təklifə razılaşıb, ancaq bildirib ki, biznesmen onunla seksə görə əlavə ödəniş etməlidir. Tərəflər 40 min dollara razılaşıblar. Biznesmen pulu ödəyib. Lakin məsələ sözdən işə keçməyə gələndə balerina bir az istirahət etmək adı altında başqa nömrəyə keçib. Səhər tezdən isə o, oteli tərk edərək naməlum istiqamətə gedib. Biznesmendən intimə görə aldığı pulu isə geri qaytarmayıb.

***

**"Yeni Müsavat" Rusiya mətbuatının bu mövzuda yazdığı əlavə məlumatları da izləyib. Məlum olub ki, D.Tulyanov A.Volaçkovanı fahişəliklə məşğul olmaqda ittiham edib. Onun ittihamları aşağıdakı kimi olub:** "Nastya fahişəliklə məşğul olur, ailələri dağıdır və təmiz, əxlaqlı insanları ləkələyir. Hətta bu yaxınlarda xaç qızı olan Oksana Puşkina ilə dalaşıb. Sən necə balerinasan ki, özünü belə aparırsan".

**"Ekspress qazeta"ya açıqlamasında D.Tulyanov deyib ki, "Ulduzla şam yeməyi" layihəsi adından da göründüyü kimi, özündə ancaq şam yeməyini ehtiva edir. Onun sözlərinə görə, burada hər hansı intim xidmətdən söhbət gedə bilməz və balerina sözügedən təkliflə razılaşmaqla əslində bu anlaşmanı da pozub:** "Azərbaycanlı biznesmenlərdən biri - etik səbəblərdən adını açıqlamırıq - mənə müraciət edərək, Voloçkova ilə şam yeməyi yemək istədiyini dedi. Tanışlıq üçün ondan 25 min dollar aldım. 15 min dollar Nastyaya, 10 min dollar isə agentliyə çatacaqdı. Balerina onunla görüşdü, yeməyini də yedi, amma daha sonra "öz işini" gördü. Azərbaycanlı iş adamı ilə gecə keçirmək, intim xidmət göstərmək üçün qiymət açıqlayıb. Nəticədə Voloçkova 40 min dollara razılaşıb, avansı alıb, otelə gəlib. Bakılı biznesmenə isə deyib ki, görüşdən öncə oteldə istirahət etməlidir. Amma başqa bir nömrəyə keçərək qapını da bağlayıb. Olduqca mədəni şəkildə ona zəng ediblər, cavab verməyib. Mədəni şəkildə qapısını döyüblər, açmayıb. Səhər tezdən isə başqa bir şəhərə gedib. Təbii ki, onu heç kim qol gücü ilə saxlamayıb, çünki onlar elə adamlar deyillər".

Tulyanov deyib ki, növbəti dəfə Voloçkova azərbaycanlı biznesmenlə intim əlaqəyə girib. Amma bunun ardınca baş verənlər daha dəhşətli olub. Belə ki, Voloçkova azərbaycanlı biznesmenə tez-tez zəng edib və ondan seçkiöncəsi kampaniyası üçün pul tələb edib. Bundan başqa, artist biznesmenin həyat yoldaşına da bu xəyanət hekayəsi barədə xəbər verib. Bunun sonunda isə həmin qadının - hansı ki, südəmər uşağı var - südü kəsilib və depressiyaya girib.

Rusiya mətbuatında bu balerina ilə bağlı arxiv məlumatlarının içində isə xeyli maraqlı faktlar var. Bunlardan biri də onun daha öncə də azərbaycanlı sevgilisinin olması ilə bağlıdır. Bu şəxsin adı Bəxtiyar Səlimov olub. B.Səlimov da Rusiyada çalışan məşhur azərbaycanlı milyonerlərdən olub. O, sözügedən şəxslə 5 ay görüşüb. Daha sonra isə ayrıldıqlarını bəyan edib və onunla olan bütün ortaq fotolarını sosial şəbəkələrdən silərək, aşağıdakıları yazıb: "Bu günə qədər mənim həyatımda olan hər şeyi silirəm. Nəyə inanmışamsa, nədə yanılmışamsa, hamısını... Bu, birinci dəfə deyil. Amma həqiqət gec-tez yerini tapır. Mənim yerim ancaq səhnədir".

Balerinanın sevgi arxivində bir qayda olaraq milyarderlər yer alır. Onlardan biri də milyarder Süleyman Kərimovdur. Rusiya mediası onun azərbaycanlı və ya özbək əsilli olması ilə bağlı uzun müddət tərəddüddə olub.

Hələliksə, mövzu bağlanmış sayılmır. Çünki ortada intim sövdələşməsi ilə bağlı audio fakt olduğu deyilir. Hər nə qədər balerina son qalmaqalla bağlı yazılanları şər-böhtan adlandırsa da, bu haqda sosial şəbəkədə bir cümlə təkzib mövqeyi yaysa da, faktların yaxın zamanda üzə çıxacağı şübhəsizdir.

**Çünki firma öz nüfuzunu qorumaq, azərbaycanlı iş adamı isə ailəsinə və nüfuzuna dəyən ziyanın intiqamını almaq üçün hansısa formada hərəkətə keçəcək. O zaman həm Rusiya, həm də Azərbaycan mediası bu biznesmenin kimliyini öyrənəcək.**

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 189 (6510) 27 avqust 2016

# İşə düzəltmək adı ilə vətəndaşları aldadan dəstə ifşa olundu

**Daxili işlər orqanları internet vasitəsilə iş axtaran vətəndaşlara qarşı dələduzluq edərək onlayn yolla iş təklif edən və bunun müqabilində onların külli miqdarda pulunu mənimsəyən şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində uğurlu əməliyyat tədbiri həyata keçirib.**



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə daxil olan məlumat əsasında həyata keçirilən tədbir nəticəsində məlum olub ki, Beyləqan rayon sakinləri Səməd Bəbirov, qardaşı Yusif və Cabir Nəsirov cinayət əlaqəsinə girərək müxtəlif iş elanı saytlarında özlərindən uydurduqları "Azərqida" MMC, "Elit Grand Park" firmalarına və "Guess" ayaqqabı fabrikinə guya işçi axtarıldığı barədə elanlar yerləşdiriblər.

Dəstə üzvləri həmin elanlarla bağlı müraciət edən vətəndaşlardan əmək sığortası adı altında S.Bəbirovun "Kassam.az" elektron pul kisəsi xidmətində qeydiyyatdan keçmiş hesabına müxtəlif məbləğlərdə pul köçürmələrini tələb ediblər.

Pullar hesaba köçürüldükdən sonra adıçəkilən şəxslər pul vəsaitlərini çıxararaq çoxsaylı vətəndaşlara külli miqdarda ziyan vurublar.

Saxlanılan şəxslərin yaşadıqları ünvanlara baxış zamanı bank kartları, müxtəlif mobil operatorlara məxsus çoxsaylı telefon nömrələri, kompüterlər və iş üçün zəruri olan digər maddi sübutlar aşkar olunaraq götürülüb.

Dələduzluq hadisəsi ilə üzləşən vətəndaşların şəxsiyyətləri müəyyən edilib və onlar zərərçəkən şəxs qismində Baş İdarəyə dəvət olunublar. Həmin vətəndaşların ərizə və şikayətləri qəbul edilərək istintaq materiallarına əlavə edilib.

**Qeyd edilən faktla bağlı Baş İdarənin İstintaq Şöbəsində cinayət işi başlanıb, araşdırmalar davam etdirilir.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Şəmkirdə qadın ərinə mesaj yazan qadını bıçaqlayıb

**Şəmkirdə bıçaqlanma hadisəsi baş verib. Şəmkir Rayon Polis Şöbəsindən "Report"un Qərb bürosuna verilən məlumata görə, Sarıtəpə kəndində rayon sakini, 1988-ci il təvəllüdlü Günel Mirzəyeva mübahisə zəminində həmyerlisi 1991-ci il təvəllüdlü Məleykə Allahverənovanı bıçaqlayıb.**

Şəmkir Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilən yaralının vəziyyəti ağırdır.

Günel Mirzəyeva polis tərəfindən saxlanılıb. İlkin məlumata görə, G.Mirzəyevanın cinayət törətməsinə səbəb uzaq qohumu olan M.Allahverənovanın, onun həyat yoldaşının telefonuna mesaj yazması səbəb olub. Faktla bağlı araşdırma aparılır.

## Yetkinlik yaşına çatmayanlar 6 ayda 244 cinayət törədib

**2016-cı ilin I yarım ili üzrə Azərbaycanda yetkinlik yaşına çatmayanlar ümumilikdə 244 cinayət hadisəsi törədiblər. Bu barədə APA-ya Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və Analitik Araşdırmalar şöbəsindən məlumat verilib.**

Şöbədən bildiriblər ki, bu müddətdə avaraçılıq və dilənçiliklə məşğul olan 250 nəfər yetkinlik yaşına çatmayan şəxs aşkarlanıb. Küçə uşaqlarının sayı isə 12 olub.


## TƏBRİK



*Bu gün Fuad balanın doğum günüdür! Əzizimiz Fuad səni ad günün münasibəti ilə atan Emin, anan Zeynəb və qardaşın Fərid ürəkdən təbrik edirlər. Sənə ən əsası can sağlığı, uzun ömür, xoşbəxtlik, dop-dolu sevgi, məhəbbət arzu edirlər. Ulu Tanrı ömrünə ömür, sevincinə sevinc qatsın. Atdığın hər addım sənin həyatına uğur gətirsin. Gözlərində daima sevinc qığılcımları parlasın. Sevinc başının tacı, kədər ayağının tozu olsun. Bu arzular, səni qanadına alıb ən uca zirvələrə qaldırsın və yenilməz olasan! Ad günün mübarək!*


## Kürdəmirdə silsilə oğurluq edən rayon sakini tutuldu

**Kürdəmirdə silsilə oğurluq edən rayon sakini tutulub. APA-nın yerli bürosunun xəbərinə görə, Kürdəmir Rayon Polis Şöbəsinə bir neçə ərazidən oğurluq edilməsi ilə bağlı xəbər daxil olub. Keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluqda şübhəli bilinən rayonun Xırdapay kənd sakini, 28 yaşlı Vasif Nəsirov tutulub. İlkin dindirmə zamanı məlum olub ki, o, 2013-cü ildən etibarən törətdiyi oğurluq əməlləri ilə əcnəbi və yerli vətəndaşlara xeyli maddi ziyan vurub.**

V.Nəsirov 2013-cü il yanvarın 25-də Xırdapay kəndində kirayədə qalan ABŞ vətəndaşı Mee Herin evindən dəyəri 500 dollar olan notebook, datakart, fotokamera, yaddaş bloku, ötən ilin dekabrında həmin kənd sakini Zahid Zərbalıyeva məxsus Bakı prospektində yerləşən qəbir daşları sexindən elektrik generatoru, su nasosu, bu ilin yanvar-fevral aylarında isə kənddə Seymur Bünyətova və Şirməmməd Əbdürrəhmanova məxsus avtomobil sexi və qarışıq mallar mağazasından maşın ehtiyat hissələri, ətçəkən maşın motoru, elektrik kabelləri oğurlayaraq satıb. Əvvəllər də oxşar əməlləri ilə məhkumluq həyatı yaşayan V.Nəsirov əməlini etiraf edib.

## Bu gün bəzi yerlərdə şimşək çaxacaq, qısamüddətli yağış yağacaq

**Avqustun 27-də Bakı və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, səhər saatlarında yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək.**

Havanın temperaturunun yarımadada gecə 21-25, gündüz 31-36, Bakıda gecə 22-24, gündüz 32-34 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət gecə 65-75%, gündüz 35-45% təşkil edəcək.

Abşeron çimərliklərində dəniz suyunun temperaturunun Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 24-25°, Buzovna, Mərdəkan, Şüvəlanda 26-27, Türkan, Hövsan, Sahil, Şıxda 27-28 dərəcə isti olacağı gözlənilir.

Avqustun 27-28-də Abşeron yarımadasında zəif küləklərin üstünlüyü fonunda havada rütubətliyin normadan bir qədər çox olması meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin axşam və gecə bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 20-25, gündüz 34-39, dağlarda gecə 15-20, gündüz 25-30 dərəcə isti olacağı gözlənilir.


## Elan

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə!**

**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**

**Əlaqə telefonu: (050) 371-01-60; (070) 335-90-15**

YENİ MÜSAVAT
N 189 (6510) 27 avqust 2016

**Bu il təhsil haqları 25 faiz artırılıb. Bunun nəticəsidir ki, 440 nəfər abituriyent tələbə adından imtina edib. Çünki onların maliyyə imkanları pullu təhsil almalarına imkan vermir. Qeyd edək ki, bu artım hesabına 5 milyondan artıq pul əldə ediləcək. Maraqlıdır, bəs bu 5 milyon vəsait hara sərf ediləcək? Müəllimlərin əmək haqları artırıla bilərmi?**

# Təhsil haqlarından əldə edilən 5 milyon vəsait nəyə sərf ediləcək?

## Əjdər Ağayev: "Bu pul universitetlərdəki maddi-texniki bazanın zənginləşməsinə yönəldilməlidir"

**Təhsil Şurasının sədri, təhsil eksperti Əjdər Ağayev** bu pulun universitetlərdəki maddi-texniki bazanın zənginləşməsinə yönəlməsinin daha məqsədəuyğun olduğunu dedi: "Ali məktəblər, xüsusən də muxtariyyət verilmiş ali məktəblər var bizdə, Bakı Dövlət Universiteti, Texniki Universitet və digər 8 universitet. Bunların daxili imkanlar, beynəlxalq layihələrdən gələn qazanclar hesabına müəllimlərin əmək haqlarını artırma imkanları var. Misal çəkim ki, bu gün Texniki Universitetdə heç bir dərəcəsi olmayan müəllimin maaşı 600 manatdır. Dərəcəli kafedra müdiri 1200 manat maaş alır. İndi əvvəllərdə olduğu kimi müəllim bir qrafikdə maaş alsın kimi standartla yanaşılmır. Hətta ola bilər ki, tarixdən dərs deyən üç müəllimdən biri 800, biri 600, o biri də 500 manat alsın. Bu onun təlim keyfiyyətinin nəticəsinə görə yanaşılır. Yəni yanaşmalar tamamilə dəyişilib. İndi o təfəkkürlə yanaşmaq lazım deyil. Məntiqi nəticə budur ki, ali məktəblərin hər biri özü müəllimin əmək haqqının artmasına diqqət yetirməlidir. Bu əmək haqqının ödənilməsi qrafikası ilə əmək haqqından əlavə tutaq ki, hansısa bir müəllimin ən hörmətli jurnalda məqaləsi çap olunub. Ona min manat qonorar yazılır. Əgər kitabı çap olunubsa, bir neçə min manat yazılır. Yəni ali məktəblərdə artıq bu yollar var. Bunları tətbiq edən ali məktəblərin professor-müəllim heyəti öz fəaliyyətinin nəticəsinə, qabiliyyətinə, dəyərinə görə yüksək əmək haqqı ala bilir. Ona görə də təhsil haqlarının 25 faiz artımından əldə edilən 5 milyonluq bir artım əmək haqqından daha çox maddi texniki bazanın, sırf texnologiyaların zənginləşdirilməsinə verilməli, yataqxanalar tikilməli, laboratoriyalar alınmalıdır. Beynəlxalq reytinqdə laboratoriya, kitabxana, təlim keyfiyyəti, peşə hazırlığı əsasdır. Yəni ali məktəb özü düşünür ki, mənim harada kəm-kəsirim var o pulu ora yönəltsin. Ola bilər elə ali məktəb də olsun ki, o puldan hər müəllimin əmək haqqına da 100-150 manat əlavə etsin. Bu, mümkün ola bilər. Amma hökm vermək olmaz ki, təhsil haqqı artıb, müəllimlərin maaşını niyə artırmırlar. Bu artım gedir. İndi hər bir ali məktəb öz kadrının sosial tələbatının ödənilməsi üçün çalışır və çalışmalıdır. Bu gün yanaşma belədir".



**Azad Müəllimlər Birliyinin sədri, təhsil eksperti Məlahət Mürşüdlü** müəllimlərin əmək haqlarında artımların mütləq olacağını dedi: "Universitetlər var ki, bu artımla paralel olaraq müəllimlərin də əmək haqlarını artırırlar. Dərslər hələ başlamayıb. Mən düşünürəm ki, müəllimlərin maaşlarında artımlar mütləq olacaq. Çünki müəllimlərin hamısı indi məzuniyyətdədir, sentyabrın ortalarında işə başlayacaq. Düşünürəm ki, iş başlayan kimi bu məsələ müsbət həll olunacaq. Məzuniyyətdə olan əmək haqları artmır".

**İqtisadçı ekspert Rəşad Həsənov** isə 5 milyonun dövlət büdcəsinin heç 4 faizi etmədiyini dedi: "Azərbaycan iqtisadiyyatının indiki vəziyyətini qiymətləndirsək 5 milyon elə də böyük bir məbləğ deyil. 5 milyonu sərf etməklə Azərbaycan iqtisadiyyatını inkişafa yönəltmək indiki halda mümkün deyil. Çünki indi dövlət büdcəsi təxminən 20 milyarda yaxındır. 19 milyard dövlət büdcəsidir, 5 milyon burada kiçik rəqəmdir. Səhv etmirəmsə, bu heç 100-də 4 faizə çatmır. Həmçinin nəzərə almaq lazımdır ki, bu ödənişlərin artımından əldə olunan gəlirlərin böyük bir qismi universitetlərin öz nəzdində qalır. Çünki Azərbaycan universiteti artıq öz-özünü maliyyələşdirmə sisteminə keçib. Bu da təbii ki, müxtəlif istiqamətlərə infrastukturuna təkmilləşdirilməsi kimi məsələlərə yönələcək. Eyni zamanda, bir çox universitetlərdə də bu vəsait müəllimlərin əmək haqlarının artırılması, rifahın yüksəldilməsi, mükafatlandırma kimi məsələlərə yönəldiləcək. Bu pulu Azərbaycan iqtisadiyyatına yönləndirmə və burada hansısa inkişaf əldə edilməsi mümkün deyil. Çünki çox kiçik rəqəmdən söhbət gedir. Eyni zamanda prosedurlar da bunun dövlət büdcəsini təmin etməsini şərtləndirmir".

**İqtisadçı-ekspert bu gəlirin həm yaxşı həm də pis tərəflərinin olduğunu da qeyd etdi:** "Nəticə ödənişi həyata keçirən insanların çətinliklə üzləşdiyini deməyə əsas verir. 440 nəfər ödəniş edə bilmədiyi üçün tələbə adından artıq imtina edib. Bu pis tərəflərdir. Bu gün Azərbaycan vətəndaşının maliyyə vəziyyəti həqiqətən də kifayət qədər çətindir. Eyni zamanda onu da nəzərə almaq lazımdır ki, bizim konstitusiyamızda hər bir vətəndaşa təhsil almaq hüququ verilirsə, buna şəraitin də təmin olunması hökumətin borcudur. Amma digər tərəfdən də universitetlərin əlavə vəsait əldə etmək imkanlarının olması haradasa Azərbaycan müəlliminin əmək haqlarına müəyyən qədər müsbət təsir göstərə bilər. Universitetlərin infrastuktruna müəyyən qədər müsbət təsir göstərə bilər ki, bu da son nəticədə təhsilin keyfiyyətində irəliləmələri şərtləndirir".

❑ **Günel MANAFLI**

# "Ehsan qadağası"nın baş tutmamasının səbəbi...

## "Ehsan əslində yaxşılıq, gözəl iş deməkdir, konkret olaraq yemək vermək anlamına gəlmir"

**2014-cü ilin avqust ayında Azərbaycan hökuməti yas mərasimlərində həddən artıq israfçılıqla müşayiət olunan ehsan süfrələri "adət"ini ləğv etməyə qərar verdi. Bununla bağlı xeyli təbliğat işləri aparıldı, hətta bəzi yerlərdə inzibati qaydada qadağalar tətbiq edildi. Ancaq görünən budur ki, yas məclislərində israfçılığın qarşısını almaq səyləri nəticəsiz qalıb. Məlumatlara görə, yalnız Naxçıvanda yerli rəhbərliyin sərt qadağası nəticəsində ehsan süfrələri qənd-çayla məhdudlaşdırılıb.**



Digər yerlərdə isə bəzi rayon və kəndləri çıxmaq şərti ilə bu qadağa lazımi nəticəsini vermədi. İddia olunur ki, hökumətin ölkədə yas məclislərinin keçirilməsi qaydalarına dəyişiklik etməsi Qafqaz Müsəlmanları İdarəsinin *(QMİ)* sədri Şeyxülislam Allahşükür Paşazadənin ciddi narazılığına səbəb olub və bu baxımdan qərarın icrasız qalmasında şeyxi də günahlandıranlar var. O da sirr deyil ki, hazırda Bakıda QMİ-nin nəzarətində olan əksər məscid və xeyir-şər evlərində dəbdəbəli ehsan süfrələri açılmaqda davam edir.

Amma qeyd etdiyimiz kimi, tətbiq edilən qadağalar bir sıra bölgələrdə, rayon kəndlərində öz qüvvəsində qalıb. Bir çox rayonda insanlar yas süfrələrindən meyvəni və digər bu kimi qidaları xurma və çayla əvəz edib. Misal üçün Cənub, Şirvan zonalarında, Qazax, Şəmkir, Tovuz rayonlarında yas mərasimlərində ehsan süfrələrinin əsasən xurma, halva və çayla məhdudlaşdırıldığı söylənilir.

Bakının bəzi kəndlərində isə ağsaqqallar ehsan süfrələrində israfa yol verməmək üçün müxtəlif qaydalar tətbiq ediblər. Bu, ehsan olaraq yemək verilməsi yerinə, kəndin imkansız, sağlamlığı yerində olmayan sakinlərinə kömək etmək kimi qaydalar tətbiq olunur.

*İki il öncə tətbiq olunan ehsan qadağası nə üçün ölkə boyunca öz nəticəsini vermədi?*

Məsələ ilə bağlı **"Yeni Müsavat"ın dini yazarı Kənan Rövşənoğlu** bildirib ki, dində belə bir məqam var ki, ölüsü ölən evdə yemək bişirməyin: "Qonşular, yaxınlar bişirib yemək gətirsinlər. Çünki yaxını ölən adam kədərli, hüznlü olur. Ehsan ənənəsi sovet dövründə ortaya çıxaraq, yayılmış bir haldır. Həm də Azərbaycan xalqının adətində belə bir şey var ki, evinə gələnə mütləq yemək bişirir, süfrə açır. Hətta qonaq qalır bir kənarda, ev yiyəsi gedib ona yemək hazırlayır. Bu məsələnin də kökündə həmin adətlərin təsiri yox deyil. İnsanların yaxınları ölür, qadınlar ağlayırlar, kişilər də qaçırlar ət almağa, mağar danışmağa və sairə. Bu artıq bizim qanımıza hopmuş ehsan adətidir. Ehsan əslində yaxşılıq, gözəl iş deməkdir. Yəni bu, konkret olaraq yemək vermək anlamına gəlmir. Bizdə belədir ki, yas yerinə uzaqdan gələnlərə yemək verirdilər. Son dövrlərdə isə bu lap ifrat hala gəlib. Ehsan budur ki, hər kəsin imkanı nəyə çatırsa onu versin. Bu, bir stəkan su da ola bilər. Ancaq insanlar sanki bəhsə düşərək, getdikcə ehsan üçün verilən yeməklərin sayını artırırlar. Bunu dinlə bağlamaq olmaz. Daha çox adətlərlə əlaqədədir".

**K.Rövşənoğlu şeyxlə bağlı iddiaya da münasibətini bildirib:** "Doğrudur, şeyx məlum qərara öz etirazını bildirdi. QMİ-nin nəzarətində yas mərasimlərinin keçirildiyi obyektlərin olması doğrudur. Lakin bunu tamamilə onunla əlaqələndirmək olmaz. Misal üçün rayonda kimsə həyətində mağar qurub, ehsan verir. Bunun hər mənada şeyxə heç bir aidiyyəti yoxdur. Dinə görə ehsanın ölüyə faydası var. Lakin məsələ qeyd etdiyim kimi yemək deyil. Ölünün ruhunun şad olması üçün ona kiminsə dua etməsi çox mühümdür. Ehsanı ona görə verirlər ki, bir ac insanı doyursunlar. Yaxud da yol, su çəkirlər. Bu da onunla əlaqədardır ki, o yoldan keçən, sudan içən adam onun ölüsünə rəhmət oxusun. Ehsanın da son məqsədi əslində odur. İmkanı olan adam ehsan verə bilər. Hər kəs imkanına görə addım atmalıdır. Məsələn, sənin qonşun iş adamıdır, milyonçudur o, 40 gün ehsan da verə bilər. Ancaq orta gəlirli adamın onunla bəhs etməsinə gərək yoxdur. Eyni zamanda ehsan verirsənsə, qapı qonşunun gəlib sənin evində yemək yeməsinə gərək yoxdur. Ehsanı verirsənsə mahiyyət etibarı ilə onu uzaqdan gələn, ehtiyacı olan yesə daha yaxşıdır. Ehsan savab üçündür. Savab qazanmaq üçün yemək yerinə bir tələbəni də oxutmaq olar. Hansı ki, o tələbə oxuduğu, daha sonra işlədiyi, cəmiyyətə hər hansı bir xeyir verdiyi ərəfədə hamı ona dua edəcək ki, bunun da savabından onu oxudana pay olacaq. Bizdə bunun ən primitiv forması budur ki, qapıda süfrə açılmalı, hamı yedizdirilməlidir. Bu da hesab edirəm ki, normal forma deyil".

❑ **Əli RAİS**

# YENİ MÜSAVAT

**Son səhifə**

*N 189 (6510) 27 avqust 2016*




## İnsanlar ən çox cümə günü siqareti atmağı düşünürlər

İngiltərənin "The Sun" qəzeti insanların iş qrafikini həftənin günlərinə uyğun bölüb. Həmin qrafikə görə, həftənin çərşənbə axşamı günü insanların ən məhsuldar günüdür. Həftənin çərşənbə günü isə insanların vurulması, aşiq olması üçün idealdır. Amerikada 8 min subay arasında aparılan araşdırmada bu, özünü təsdiqləyib. Belə ki, rəyi soruşulanlar deyib ki, ilk görüş uğurlu keçirsə iki gün sonra növbəti görüş üçün də vədələşmə baş tutur və xoşbəxt bir münasibətin təməli qoyulur. Həftənin cümə günü ilə bağlı nəticə isə ondan ibarətdir ki, insanlar bu tarixdə həftə sonunun da gətirdiyi rahatlıqla hətta siqareti də atmaq haqda düşünür. Şənbə gününə gəlincə... Burada söhbət təkcə əyləncə saatlarından getmir. Alimlər həmin gün həddən artıq alkoqol qəbul etməyə qarşı çıxır. Belə ki, bu, insanların alkoqollu halda maşın idarə etməsi qəzaların sayını 70 faiz daha artırır. Bundan başqa, hamilə qadınlara məhz həmin gün doğum etməyi məsləhət görülür. Burada söhbət qeysəriyyə əməliyyatı ilə uşaq dünyaya gətirməkdən gedir. Çünki həmin gün doğulan uşaqlar digərləri ilə müqayisədə daha çox uğur qazanır. Bazar gününə gəlincə, həmin gün insanlara evdə yemək hazırlamaq məsləhət görülmür. Çünki bu, ciddi stress yaradır.

# Həmam kimi sərgi...

İngiltərədə açılan bir sərgi orijinal bir üsulla diqqət çəkir. Ziyarətçilər divarlarda açılan deşiklərdən çimən manekenləri canlı olaraq izləyir. Mükafat almış sənətçi Mark Vallinger imzalı sərgi 16-cı əsrdə yaşamış məşhur rəssam Titianın tablolarından təsirlənib. "Diana" adlı yeni layihəsi üçün tvitter vasitəsilə elan verdiyini və 6 manekeni işə aldığını deyən Vallinger modellərin 2 saatdan bir yer dəyişdirdiyini söyləyib. Modellərin hamısına layihədə eyni ad verilib: "Yunan mifologiyasından gələn tanrı Diana əfsanəsində yer alan hamam səhnəsini günümüzə uyğunlaşdırmaq istədim və ortaya belə bir iş çıxdı".



## 2 yaşlı uşaq evdə tək qaldı, pəncərədən ütü və çaydanı atdı

Rusiyanın Kalininqrad şəhərində yanğınsöndürənlər dördüncü mərtəbədəki evlərinin pəncərəsindən ayağını sallayan balaca oğlanı xilas ediblər. Uşaq pəncərədə oturaraq yerə əşyalarını atır və gəlib-gedəni çağırırmış. Körpənin hər an müvazinətini itirəcəyi və yerə düşüb tələf olacağı ehtimalını nəzərə alan xilasedicilər dərhal hərəkətə keçiblər. Onlar uşağı ürkütməmək üçün evə qapıdan giriblər. Amma eyni zamanda binanın qabağında da qurğular düzəldiblər ki, yerə düşəcəyi halda körpəni xilas etsinlər. Uşaq pəncərədə əylənən zaman çaydanı və ütünü də aşağı atıb. Daha sonradan isə aydın olub ki, uşağın anası işə gedib və onu evdə təkbaşına qoyub. Ona baş verənlərlə bağlı zəng vuraraq məlumat veriblər və dərhal evə gəlməsini istəyiblər. Qadın isə hüquq mühafizə orqanlarının əməkdaşları ilə üz-üzə gəlməmək üçün bu görüşdən imtina edib. Ananı ciddi cinayət məsuliyyətinə cəlb edəcəklər. Körpənin ondan alınacağı da ehtimallardandır.





## Kök kişilərə çimərlik paltarı geyinmək qadağası

Fransada sosial şəbəkə istifadəçiləri yeni bir kampaniyaya başlayıblar. Bu, kök kişilərin dar çimərlik paltarı geyinməsi ilə bağlıdır. Lenta.ru saytı "The Independent"ə istinadən xəbər verir ki, bu barədə sosial şəbəkədə ciddi müzakirələr aparılır. Daha öncə müsəlman qadınların çimərlikdə burkini geyinməsi ilə bağlı etiraz dalğası indi də bu formada davam edir. İnsanlar hesab edirlər ki, kök kişilər də biabırçı formada çimərlik geyimi ilə ortada dolaşması qeyri-estetik görüntülərə səbəb olur. "Biz hesab edirik ki, çimərliyə gələn bəzi qadınlar və kişilər ümumiyyətlə, soyunmasınlar. Çünki bu, çox qeyri-estetik görüntü yaradır". Bunu da kampaniyanın fəalları öz müraciətlərində yazıblar.




**QOÇ** - Astroloji göstəricilər potensial imkanlarınızın genişlənəcəyini göstərir. Əgər gücünüzə inanırsınızsa, boş dayanmağa lüzum yoxdur. Axşam rəqiblərinizdən təhlükə gözlənilir.

**BUĞA** - Böyük dəyişiklər astanasındasınız. Hətta lazımi məqamda düzgün qərar çıxarsanız, ayın sonuna qədər ovqatınız xoş olacaq. Tərəddüd etdiyiniz məsələləri isə təxirə salmalısınız.

**ƏKİZLƏR** - Özünüzü nə qədər təmkinli aparsanız, işləriniz də bir o qədər uğurlu gedəcək. Hansısa xırdaçılığa görə hisslərinizi kandara çıxarmayın. Axşama yaxın maraqlı hadisələr gözlənilir.

**XƏRÇƏNG** - Nahara qədər mənfi yüklü Ay bürcünüzə girdiyi üçün həmkarlarınızla, yaxınlarınızla mübahisələriniz mümkündür. Bu səbəbdən deyilən müddətdə daxili sabitliyinizi qorumalısınız.

**ŞİR** - Adi bir gün yaşayacaqsınız. Hansısa böyük bir iş görəcəyiniz və ya qanqaraçılığı ilə rastlaşacağınız ağlabatan deyil. Bu gün riskdən, eləcə də yeni sövdələşmələrdən uzaq olmalısınız.

**QIZ** - Ulduzların düzümü maddi çətinliklərinizdən xəbər verir. Çalışın ki, büdcənizdə olan vəsaiti boş məsrəflərə xərcləməyəsiniz. Ailə üzvlərinizin problemlərinə laqeyd yanaşmayın.

**TƏRƏZİ** - Kosmik gərginlik sizi müşayiət etsə də, çılğınlıq etməsəniz, günü sakit tərzdə başa vuracaqsınız. Nahardan sonra sizi səbəbsiz münaqişələrə cəlb etmək istəyəcəklər.

**ƏQRƏB** - Yeni əlaqələr qurmaq istəyirsinizsə, bu tarixdən maksimum yararlanmağa çalışın. Nüfuzlu adamların köməyindən istifadə edin. Gəlişixoş sözlər işlətməyin. Onsuz da buna heç kim inanmayacaq.

**OXATAN** - Olduqca səmərəli bir təqvim yaşayacaqsınız. Cərəyan edən proseslər bütünlüklə zövqünüzə uyğun olacaq. Amma daxili orqanlarınızı da qorumalısınız. Ağır fiziki işlərə ara verin.

**OĞLAQ** - Göy qübbəsi gün ərzində sizi bir neçə dəfə sınaqdan keçirməyə çalışacaq. Buna hazır olun və hər hansı məişət problemini özünüzə dərd etməyin. Şəxsi işlərinizdə dönüş yaranmaqdadır.

**SUTÖKƏN** - Nə qədər güclü olsanız da, təkbaşına hansısa vəzifənin öhdəsindən gələcəyinizi düşünməyin. Çünki sizə dəstək verən olmasa, uğurlu olaylardan uzaq düşəcəksiniz. Bəxtinizdə pul var.

**BALIQLAR** - Qarşınızda duran bu maraqlı təqvimi bürcünüz üçün ən perspektivli ana çevriləcək. Sizə qarşı hiyləgər mövqedə duranlara əl-qol açmağa macal verməyin. Lazımi məqamlarda sərtlik də göstərin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dənizdə balinanın üstündə qaldı



Avstraliyada gənc bir adam suda sürüklənən ölü bir balinanın üzərinə çıxmış vəziyyətdə görüntülənib. İşin ən maraqlı tərəfi isə balinanın ətrafında köpək balıqlarının üzməsi olub. Harrison Villiams adlı gənc qayığı ilə dənizdə tura çıxdığı zaman acı çəkdiyini düşündüyü balinaya yardım etmək üçün suya hoppanıb. Amma balinanın yanına gəldikdən sonra ölü olduğunu anlayan Villiams onun üstünə çıxanda qəribə mənzərə ilə qarşılaşıb. Məlum olub ki, ölü balinanın ətrafındakı köpək balıqları onu didmək üçün növbəyə dayanıblar. Gənc bu mənzərədən qorxuya düşdüyü üçün qışqırmağa başlayıb. Onu başqa bir gəmidəki heyət azad edib.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750